# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Təqaüd və müavinət artımı cəmiyyətdə necə qarşılandı?




6

SƏS
№ 105 (7273)
19 iyun 2025-ci il.
Qiyməti 60 qəpik

## İlham Əliyev: "Ermənistan azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşmalıdır"



2

# Moskvadan İrəvana "Taşir" hücumu







Rusiya Ermənistana erməni əsilli milyarderlə həmlə edir və...

4

## "Gələn həftə çox vacib olacaq..." - Tramp yenə hədələdi!




7

## Avtonom avtomobillər: insansız gələcəyə doğru



15

## "Əsas məsələ təhsilin keyfiyyəti, həyatla əlaqəliliyidir"



8

## Tramp Amerika üçün Qorbaçova çevrilir...



4

## Bizdə piknik...



7

# İlham Əliyev: "Ermənistan azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşmalıdır"

**Prezident İlham Əliyev "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçılarına müraciət ünvanlayıb. Müraciətdə deyilir: Hörmətli simpozium iştirakçıları, Sizi "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun açılışı münasibətilə salamlayıram.**

Bu il Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu, Vətən müharibəsində şanlı zəfərimizin 5-ci ildönümüdür və bu münasibətlə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. 18 iyun həmçinin ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Bugünkü simpoziumun belə əlamətdar tarixlərlə eyni vaxta təsadüf etməsi onun əhəmiyyətini artırmaqla yanaşı, Azərbaycanda müstəqillik və suverenlik dəyərlərinin, demokratik prinsiplərin, qanunun aliliyinin və insan hüquqlarının təbliği və təşviqi baxımından xüsusi önəm daşıyır.

İnsan hüquqları və əsas azadlıqlarının qorunması dövlətlərin başlıca vəzifələrindən biridir. Xüsusilə son dövrdə baş verən qlobal proseslər, geosiyasi gərginlik, informasiya texnologiyalarının sürətlə inkişafı və rəqəmsallaşmaya keçid insan hüquqlarının müdafiəsi sahəsində yeni prioritetlərin



müəyyən olunmasını, hüquq müdafiə mexanizmlərinin, habelə milli insan hüquqları təsisatlarının fəaliyyətinin gücləndirilməsini şərtləndirir. Bu baxımdan, ölkəmizdə aparılan hüquqi və institusional islahatlar çərçivəsində ombudsman təsisatının mandatının beynəlxalq hüquq normalarına tam uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir və bu tədbirlər davam etdirilməkdədir.

Simpoziumda müzakirə ediləcək mövzulardan biri qaçqınların hüquqları ilə bağlıdır. Bu sahədə diqqət yetirilməli olan məsələ keçən əsrin əvvəlindən başlayaraq Qərbi Azərbaycandan - Ermənistan ərazisindən yüz minlərlə azərbaycanlının zorla çıxarılması və etnik təmizləməyə məruz qalmasıdır. Həmin dəhşətli deportasiyalardan sonra Ermənistan ərazisində bir nəfər belə azərbaycanlı qalmamış, bu ərazilərdə xalqımızın qədim tarixi-mədəni, dini-mənəvi irsi, o cümlədən abidələr, məscidlər, qəbiristanlıqlar məhv edilmişdir. Tarixi ədalət bu insanların öz vətənlərinə dinc və təhlükəsiz qayıdışının təmin olunmasını tələb edir. Ermənistan azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşmalıdır. Bu, bölgədə sülhün, barışığın və insan hüquqlarının bərqərar olması üçün vacib şərtdir.

Əminəm ki, bu simpoziumda aparılacaq müzakirələr və təcrübə mübadiləsi insan hüquq və azadlıqlarının müdafiəsi, hüquq mədəniyyətinin təbliği, təsisatlar arasında əməkdaşlığın gücləndirilməsi və qanunun aliliyinin təmin olunması üzrə gələcək perspektivlərin müəyyən edilməsi baxımından faydalı olacaqdır. Bir daha sizi salamlayır, simpoziumun işinə uğurlar arzulayıram". - deyə müraciətdə bildirilib.

# "Siyasi münasibətlərimiz yüksək səviyyədədir"

## Prezident İlham Əliyev Bolqarıstan Milli Assambleyasının sədrini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Bolqarıstan Respublikası Milli Assambleyasının sədri Nataliya Kiselovanı qəbul edib. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin strateji xarakter daşıdığını deyərək, əməkdaşlığımızın genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərləri və həyata keçirilən birgə layihələri qeyd etdi. Siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı son illərdə enerji sahəsində aktiv qarşılıqlı fəaliyyətin həyata keçirilməsindən məmnunluğunu bildirdi.***





Azərbaycan Prezidenti Nataliya Kiselovanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Bakıda keçirilən toplantısında iştirakının önəminə toxundu, səfərin səmərəli olacağına və ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaradacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə dövlətimizin başçısına minnətdarlıq edən qonaq ölkələrimizin əlaqələrinin inkişafından məmnunluğunu bildirdi, Azərbaycanla Bolqarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni vurğuladı.

Nataliya Kiselova Heydər Əliyev Fondunun dəstəyi ilə Bolqarıstanın Veliko-Tırnovo şəhərində Trapezitsa Arxeoloji Muzey Qoruğunun bərpasını xatırladaraq, bunun bolqar xalqı tərəfindən yüksək qiymətləndirildiyini dedi və bu layihənin həyata keçirilməsinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Bakıda keçirilən toplantısının əhəmiyyətinə toxunularaq, bu tədbirin quruma üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın genişləndirilməsində rolu vurğulandı. Assambleyaya sədrliyin Azərbaycandan Bolqarıstana keçdiyi bildirilərək, ölkəmizin bu təşkilata yüksək səviyyədə sədrlik etdiyi qeyd olundu.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilat çərçivəsində uğurlu əməkdaşlığı və bir-birini dəstəkləməsi qeyd edildi, iqtisadi-ticari, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsi üçün geniş imkanların olduğu bildirildi.



# Fatih Dönməz: "İkinci Qarabağ müharibəsindən sonra regionda dayanıqlı sülh üçün unikal fürsət yaranıb"

Azərbaycan bizim üçün sadəcə dost və tərəfdaş deyil - eyni tarixi, ortaq kökləri və mədəniyyət dəyərlərini paylaşdığımız qardaş dövlətdir. Türkiyənin və Azərbaycanın strateji tərəfdaşlığı, bütün regional əməkdaşlıq təşəbbüslərinin əsasını təşkil edir. AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin Böyük Millət Məclisinin deputatı Fatih Dönməz iyunun 18-də Milli Məclisdə keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (QDİƏT PA) 65-ci plenar sessiyasında deyib.

O qeyd edib ki, bu əməkdaşlıq xüsusilə nəqliyyat və logistika sahəsində mühüm nəticələr verir. Türkiyə beynəlxalq yük və sərnişindaşıma sahəsində müasir yanaşmalara açıqdır. Nəqliyyatın rəqəmsallaşdırılması və texnoloji yeniliklərin tətbiqi həm strateji, həm də siyasi əhəmiyyət daşıyır. Bu istiqamətdə Türkiyədə artıq bir sıra mühüm layihələr həyata keçirilir.

"İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıq dayanıqlı sülh və əməkdaşlıq üçün unikal fürsətlər təqdim edir. Azərbaycanın əzmi və siyasi iradəsi sayəsində bu gün bölgədə uzunmüddətli sülh üçün tarixi imkan yaranıb. Biz inanırıq ki, Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh müqaviləsi təkcə bu iki ölkə üçün deyil, geniş coğrafiyamız üçün də sülh, sabitlik və əməkdaşlıq baxımından əhəmiyyətli nəticələr doğuracaq. Ermənistanın bu prosesə səmimi şəkildə qoşulması və regionun gələcəyinə töhfə verəcək addımlar atması bütün bölgənin sabitliyi üçün həlledici olacaq", - deyə türkiyəli deputat vurğulayıb.

Onun sözlərinə görə, Türkiyə bu istiqamətdə Azərbaycanın mövqeyini tam dəstəkləyir və regionda sabitliyin, iqtisadi inkişafın, xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün birgə səyləri davam etdirməyə hazırdır.

# Azərbaycan - Şimali Makedoniya: qarşılıqlı əməkdaşlıq perspektivləri

## Prezident İlham Əliyev: "Ölkələrimiz arasında siyasi dialoq getdikcə güclənir və bu, yüksək səviyyəli görüşlərin intensivləşməsində özünü göstərir"



Beynəlxalq və iktərəfli əməkdaşlıq coğrafiyasını genişləndirən Azərbaycanın artan nüfuzu fonunda xarici siyasətin əsas istiqamətlərindən biri də Balkan yarımadası ölkələri ilə yaxın təmasların qurulmasıdır. Bu gün Azərbaycanın Balkan yarımadası dövlətləri ilə əməkdaşlıq əlaqələrinin genişlənməsi xarici siyasətin prioritet istiqamətlərindən biridir. Azərbaycan Balkanlarda yerləşən Şimali Makedoniya üçün də cəlbedici ölkədir. Oxşar tariximiz və inkişaf prosesləri, eyni zamanda, Azərbaycanın karbohidrogen ehtiyatları dövlətlərimiz arasındakı əlaqələrin inkişafı zərurətini meydana çıxarıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 17-də Şimali Makedoniya Respublikası Assambleyasının sədri Afrim Qaşini qəbul etməsi əlaqələrin müsbət dinamika ilə inkişafına söykənir. Söbət zamanı Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin inkişafından məmnunluq bildirilib, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanıb. Əlaqələrimizin möhkəmlənməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunulub, bu xüsusda Şimali Makedoniya Prezidentinin ölkəmizə rəsmi səfəri və keçirilən səmərəli müzakirələr diqqətə çatdırılıb. Qonaq vurğulayıb ki, Şimali Makedoniya Azərbaycanı dost ölkə kimi qəbul edir.

### ƏLAQƏLƏRİN DƏRİNLƏŞMƏSİNƏ SÖYKƏNƏN QARŞILIQLI ƏMƏKDAŞLIQ

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrimizin perspektivlərinə dair müzakirələr aparılıb. Azərbaycan və Şimali Makedoniyanın qanunverici orqanları arasında əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamız təkcə regional məsələlərdə deyil, bütövlükdə qlobal miqyasda baş verən proseslərə mühüm təsir etmək imkanlarına malikdir. Şimali Makedoniya Prezidenti Qordana Silyonovska-Davkovanın cari ilin 11 mart tarixində ildə Azərbaycana məlum rəsmi səfəri və qarşılıqlı əməkdaşlıq perspektivləri ilə bağlı aparılan müzakirələr əlaqələrin dərinləşməsinə söykənir. Səfər çərçivəsində dövlət başçıları görüşərək mətbuata bəyanatlarla çıxış etmişdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova arasında keçirilən görüş iki ölkə arasındakı əlaqələrin inkişafına mühüm töhfədir. Görüş zamanı siyasi, iqtisadi, enerji və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsi müzakirə edilib. Prezident İlham Əliyevin mətbuata verdiyi bəyanat bu əməkdaşlığın perspektivlərini və gələcək planlarını aydın şəkildə göstərmiş oldu. Azərbaycan və Şimali Makedoniya arasındakı ikitərəfli münasibətlərin inkişafı dinamik xarakter alır. Dövlət başçımızın qeyd etdiyi kimi, ölkələrimiz arasında siyasi dialoq getdikcə güclənir və bu, yüksək səviyyəli görüşlərin intensivləşməsində özünü göstərir.

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev COP29 konfransı çərçivəsində ötən il noyabrın 14-də Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkova ilə görüşü də əlaqələrin inkişafında önəmli rola malikdir. Xanım Davkova sammitin mükəmməl təşkilinə və qonaqpərvərliyə görə Azərbaycana təşəkkürünü bildirmişdi.

Xatırladaq ki, Azərbaycan ilə Şimali Makedoniya arasında diplomatik münasibətlər 1995-ci ilin iyununda qurulub. Həmin ildə Azərbaycan Şimali Makedoniyanın müstəqilliyini tanıyıb.

Azərbaycan Şimali Makedoniya ilə münasibətlərin inkişafına əhəmiyyət verir və iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir. "Siyasi əlaqələrimizin inkişafı üçün əlavə tədbirlər görülməlidir, müvafiq dövlət qurumları təbii olaraq sıx təmasda olmalıdırlar. Eyni zamanda, iqtisadi sahədə, sərmayə qoyuluşu sahəsində imkanlar araşdırılmalıdır", - deyə Azərbaycan Prezidenti çıxışlarının birində bildirmişdir. Şimali Makedoniya Respublikasının keçmiş prezidenti Qeorqe İvanov 2015, 2016, 2017 və 2018-ci illərdə müxtəlif tədbirlərdə iştirak etmək üçün Azərbaycana işgüzar səfərlər edib. Həmin səfərlər zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən görüşlərdə regional əməkdaşlıq məsələləri müzakirə edilib. Qeyd etmək lazımdır ki, 2000-ci ildə Şimali Makedoniya və Azərbaycan parlamentlərarası işçi qrupu yaradıb və bu qrup hazırda uğurla fəaliyyət göstərir. Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani 2023-cü ilin aprelində Bakıya işgüzar səfəri zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

### "AVROPA AZƏRBAYCAN QAZINA EHTİYAC DUYUR"

"İki ölkə energetika sahəsində əməkdaşlığa başlamışdır. Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılmışdır və bu, keçən ilin sonlarında baş verdi, bu il artıq müntəzəm olaraq Azərbaycan sizin bazarınızı təbii qazla təmin edəcəkdir. Gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik. Çünki biz bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparırıq. Bildirməliyəm ki, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bizim müştərilərimizin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. On iki ölkədən 10 ölkə Avropa ölkəsidir. Keçən il Azərbaycan xarici bazarları 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur",- deyə Prezident çıxışlarının birində vurğulayıb.

Azərbaycan 2021-ci ilin iyulunda Avropa İttifaqı (Aİ) ilə imzaladığı müqaviləyə əsasən, 2027-ci ilədək Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya təbii qaz ixracının həcmini 30 milyard kubmetrə çatdıracaq. Bu gün Yunanıstanın təbii qaza olan tələbatının 18 faizini Azərbaycan ödəyir. Cari ildə Yunanıstana 1,2 milyard kubmetr təbii qazın ixrac edilməsi nəzərdə tutulub. 2028-ci ildə "Ümid" və "Abşeron" yataqlarından böyük həcmdə təbii qazın hasil edilərək dünya bazarına çıxarılması gözlənilir. Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatı 2,6 trilyon kubmetrdir ki, bu da uzun müddətdə qaz ixracının artırılmasına imkan verir. Bundan başqa, 2027-ci ilin sonunadək Azərbaycan yaşıl enerji layihələri çərçivəsində 1862 MVt külək və günəş elektrik enerjisi istehsal etməyi planlaşdırıb ki, bu da 1 milyard kubmetr "mavi yanacağa" qənaət etməyə imkan verəcək.

### BEYNƏLXALQ ALƏMDƏ ETİBARLI ÖLKƏ

Azərbaycan və Şimali Makedoniya arasında iqtisadi-ticarət əlaqələrinin enerji, turizm və digər sahələrində inkişaf etdirilməsi zəruridir. Hazırda Azərbaycanda Şimali Makedoniya investisiyalı 5 kommersiya qurumu qeydiyyatdadır, onlardan 3-nün fəaliyyəti aktivdir. İki dövlət arasında imzalanan "Sərmayələrin təşviqi və qarşılıqlı qorunması" haqqında saziş də hazırda icra olunur. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynaması Avropa İttifaqı dövlətlərinin maraqlarını təmin edir. Ölkəmizin bir çox qlobal neft və qaz layihələri Şimali Makedoniyanın da maraq dairəsindədir. Həmçinin Cənub Qaz Dəhlizi, Trans Anadolu Qaz kəməri (TANAP), Trans Adriatik Qaz kəməri (TAP) layihələrində Azərbaycanın əməkdaşlıq etdiyi ölkələrin bir çoxunun da Şimali Makedoniya ilə yaxın əlaqələri mövcuddur. Bakı ilə Skopye arasında əməkdaşlıq ölkəmizin Qərbdə xüsusilə daha da aktuallaşan enerji təhlükəsizliyi məsələsində güclənən mövqeyini və rolunu bir daha ifadə etmiş olur. Azərbaycan bu gün həm geosiyasi səhnədə səmərəli fəaliyyəti ilə seçilərək diqqət çəkir, həm də Şimali Makedoniya kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpaolunan enerji baxımından son dərəcə maraqlı tərəfdaşa çevrilir. Bütün bunlar isə deməyə əsas verir ki, Azərbaycan dünən olduğu kimi, bu gün də beynəlxalq aləmdə etibarlı tərəfdaşlığını daha da möhkəmlətmək üçün ayrı-ayrı dövlətlərlə münasibətlərin dinamik inkişafına xüsusi əhəmiyyət verir.

Şimali Makedoniya və Azərbaycan arasındakı əlaqələr bir daha təsdiq edir ki, Azərbaycan həm iqtisadi imkanlarına, həm də beynəlxalq aləmdə yürütdüyü siyasətə görə etibarlı ölkədir.

***Zümrüd BAYRAMOVA***

# Moskvadan İrəvana “Taşir” hücumu

*Rusiya Ermənistana erməni əsilli milyarderlə həmlə edir və...*







***Ermənistan rəhbərliyinin Rusiyaya qarşı tutduğu mövqe Moskvanı nəhayət silkələdi və əməli addım atmağa vadar etdi. Nə qədər ki, Ukrayna kampaniyasına başı qarşımışdı, İrəvanın hərəkətləri, addımları Moskvanı yeni cəbhədə döyüşə cəlb edə bilmirdi. Yaxın Şərqdə, İran ətrafında baş verənlər, cənubdan havaya millənən barıt qoxusu və nəhayət Qərbin bütün diqqətinin Ukraynadan yayınması Rusiyanın əl-qolunu açıb, artıq Cənubi Qafqazda boylanmağa başlayıb. İlk həmləsini artıq Avropa qatarına bilet almış Ermənistana edib. Bunu açıq yox, dolayısı yolla reallaşdırmaq qərarına gəlib. Həm də erməni əsilli Rusiya vətəndaşlarının əli ilə***



Xeyli müddət idi ki, Rusiyanın erməni əsilli milyarderi, ”Taşir qrup”un rəhbəri Samvel Karapetyanla baş nazir Nikol Paşinyan arasında müharibə gedirdi vbə bu gün özünün pik həddinə çatıb. Həm də Karapetyanın müxaliflərlə bir sırada durması Paşinyan hökumətini daha çox qıcıqlandırırdı. Karapetyan artıq Ermənistan İstintaq Komitəsindədir və ona qarşı cinayət işinin açıldığı bildirilir. Ermənistan xüsusi təyinatlıları ”Taşir qrup”un rəhbəri olan milyarderin evində axtarış aparıblar. Qeyd edək ki, S.Karapetyan Ermənistanın Baş naziri Nikol Paşinyana qarşı sərt mövqeyi ilə bilinir. O, Paşinyanın Erməni Apostol Kilsəsi ilə bağlı çıxışlarını tənqid edirdi.

Biznesmen Samvel Karapetyanın tərəfdarları Nalbandyan küçəsində - Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin binasının qarşısına toplaşıblar. Bir qədər əvvəl isə iş adamı Samvel Karapetyan hüquq-mühafizə orqanlarının əməkdaşlarının müşayiəti ilə evindən çıxaraq avtomobillə uzaqlaşıb. Bir neçə saatdır ki, iş adamının evində ona dəstək olduqlarını bildirən vətəndaşlar maşının arxasınca gediblər. ”O, sadəcə olaraq Kilsəyə dəstək verdiyini və lazım gələrsə, belə demək mümkünsə, kilsə üçün mübarizə aparacağını söyləyib. Erməni Apostol Kilsəsinin mətbuat xidməti ölkə hakimiyyətinin niyə Samvel Karapetyanı təqib etdiyini belə izah edib: ”Hakimiyyət indi kilsə haqqında çox pis danışdığından o, ”Mən kilsələri qoruyacağam” deyib. Mən əsl xristian və erməni kimi kilsənin himayədarı olacağım və dəstəyini əsirgəməyəcəyim bu təklif var idi və hökumətimiz bunu həzm edə bilmədi.

## Abramyan hakimiyyəti pisləyib

Rusiya Ermənilləri İttifaqının prezidenti Ara Abramyan İrəvanda məşhur rusiyalı iş adamı Samvel Karapetyana qarşı həyata keçirilən hərəkətləri pisləyib. ”Samvel Karapetyan həm sahibkar, həm də xeyriyyəçi kimi həm Rusiya, həm də Ermənistan üçün çox şey edib və edir, bu ölkənin dünyada imicinin yaxşılaşmasına kömək edir. Xristian dindarı kimi o, Erməni Apostol Kilsəsinin xeyrinə çox işlər görüb. Ermənistan hakimiyyətinin Samvel Karapetyana qarşı bugünkü hərəkətləri ictimaiyyəti qorxutmaq və hakimiyyətin istənilən addımı atmağa hazır olduğunu nümayiş etdirmək üçün növbəti cəhddir, bunun üçün qırmızı xətlər yoxdur”.

## Paşinyan açdı sandığı

Samvel Karapetyanın bəyanatı kilsə ilə bağlı deyil, Ermənistanla bağlı idi. Ermənistanın baş naziri Nikol Paşinyan iyunun 18-də parlamentdə jurnalistlərlə söhbətində deyib ki, bəzi yerlərdən bəzi adamların Ermənistana gələrək özlərinə məxsus şəkildə nəsə edə biləcəyi təəssüratı yaratmağa cəhd edilib. Ermənistanın konkret cavab rıçaqları var və mən heç kimin belə bir şey deməsinə dözməyəcəyəm. Mən Kilsənin əleyhinə danışdım, yoxsa onun ziyarətgahlarını murdarlayanlara qarşı? Bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan Facebook səhifəsində yazıb. O, xüsusilə yazırdı: ”Erməni Apostol Müqəddəs Kilsəsi Ermənistan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş Nizamnaməsində təsdiq edir ki, onun Kanon Qanunu kilsə nazirləri və dindarlar üçün hüquqi qüvvəyə malikdir. Yepiskop və ya ağsaqqal və ya diakon, əgər zina və ya yalançı şahidlik və ya oğurluqda tutulsa, onu xaric etsinlər”.

Paşinyan deyib ki, mənim üçün mömin üçün Kanon Qanunu da bir qanun olduğundan və onu rəhbər tutmağa borclu olduğum üçün vurğulayıram ki, Arşak ”arxiyepiskop” Xaçatryan əxlaqsızlıq edib və Erməni Apostol Müqəddəs Kilsəsinin yuxarıda qeyd etdiyimiz kanonuna görə xaric edilməlidir (yeri gəlmişkən, mən sizin kimi bir çox oxşar məzmunlu qanunlar var). Yuxarıda qeyd olunan əməllə həmin şəxs həm də cinayət törətmiş şəxs idi, çünki o, subaylıq andı alaraq, eyni məzmunlu subay kahinlik əhdini bəyan etmiş və imzalamışdır ki, orada deyilir: ”Mən, Ata Arşak Xaçatryan, Allahın xeyir-duası və xalqımın iradəsi ilə, alqı-satqı keşişinin müqəddəsliyini qəbul etməyi qəti əminliklə öhdəsinə götürürəm. Xilaskar, mən söz verirəm və and içirəm, bekar kahinlik əhdimi müqəddəs şəkildə yerinə yetirəcəyəm. Fəzilətli həyat sürmək və özümü layiqincə aparacağam”.

Ardı Səh. 5



## Tramp Amerika üçün Qorbaçova çevrilir...

MƏTLƏB
Metlebsalahov@mail.ru

**“Nə qədər etiraf etməsə də, Donald Tramp ABŞ-ı uçurumun dibinə qədər gətirib çıxarıb. İlk prezidentlik günlərindəki gurultulu bəyanat və hədələr, bir çox dünya liderlərini azarlayan hərəkətləri artıq onun köməyinə gəlmir. Onun Ağ Evə köçər-köçməz özünü dünya ağası kimi aparması artıq fiaskoya uğramış bir keçmiş kimi xatırlanır. Dünyadakı müharibələri bir neçə həftəyə bitirə biləcəyi barədəki ”falçılığı” yaxşı xatırlanır. Artıq onun Vladimir Putinlə ittifaqı da keçici həvəs kimi başa çatıb. İndi sırada onun siyasətinə etiraz edən amerikalılar var. Xüsusilə D.Trampın miqrantlar əleyhinə amansız siyasəti, Meksika və Kanadaya qarşı qəbuledilməz sərt addımları, açıq şəkildə Kanadanı işğal etməklə hədələməsi ABŞ daxilincə ciddi narazılıq dalğasına səbəb oldu.**

Diqqət edin: Hazırkı Ağ Ev sahibinin ABŞ sərhədlərini bağlamağa yönəlmiş sərt immiqrasiya siyasəti, xüsusilə də Meksika ilə sərhəddə divar tikmək təşəbbüsü, əlaxüsus ailələrin ayrılmasına səbəb olacaq son addımları kütləvi etiraz dalğası üçün əsl benzin effekti oldu. Müxtəlif sosial təbəqələrin və etnik kökənlərin cəmləşdiyi ABŞ-ı bu şəkildə idarə etmək bilirsiniz nəyə oxşayır? Tamamilə keçmiş SSRİ-nin son illərindəki Mixal Qorbaçov siyasətinə. Məhz o da çoxmillətli ölkəni ağıl və məntiqin yoxsul olduğu bir dağıdıcılıqla ”idarə” edir, bilərəkdən ölkə daxilində çaxnaşma və millətlərarası düşmənçilik toxumu səpirdi. İttifaq tipli dövlətlərdə bunu etmək isə o deməkdir ki, o ölkənin sonunu gətirirsən.

Xüsusilə ABŞ kimi mürəkkəb ictimai düşüncəyə sahib ölkədə bunu ”eksperiment” kimi yoxlamaq belə dəhşətli nəticələrə gətirə bilər. İrqçilik və sosial ədalətsizlik içində çapalayan bir cəmiyyəti bu şəkildə qıcıqlandırmaq ağlı başında olan heç bir prezidentin ata biləcəyi addımlar deyil. Artıq budur, D.Trampın son iki gündə etirazçılara qarşı amansız hərbi güc tətbiqi həm də ənənəvi ABŞ demokratiyasını və hüququ dövlət anlayışını da tozanaq kimi havaya sovurdu. D.Tramp bu siyasətinə davam edərsə, ABŞ üçün ən ağır situasiyanın və daxili siyasi çaxnaşmanın pik həddinə çıxması qaçılmaz olacaq.

Başqa bir yandan, hazırkı Ağ Ev sahibi sanki hakimiyyətə gəlmək üçün xərclədiyi milyonları geri qaytarmaq üçün vurnuxan acgöz məmur, ya da biznesmen təəssüratı bağışlayır. O ABŞ kimi nəhəng ölkənin sükanı arxasında oturan dövlət xadimi libasında deyil. Yaxın Şərqə son üçgünlük səfəri zamanı üç ərəb ölkəsindən ümumi qiyməti 3 trilyard dollar olan müqavilələrlə geri qayıtması, üstəlik ona bağışlanan 400 milyon dollarlıq zirehli və özəl hazırlanmış təyyarəni Vaşinqtonda gətirməsi onun ABŞ-ın maraqlarından daha çox öz sərvətlərinin qayğısına qalan tüccar prezident obrazını ortaya çıxarır. Nə dünya üçün vəd etdiyi sülhdən, ağalıqdan əsər-əlamət qalıb, nə də gələcəklə bağlı planlarından. Onsuz da Volodimir Zelenski ilə Ağ Evdəki o məşhur söz müharibəsindən sonra imici yerlə-yeksan olan D.Tramdan artıq nə Avropada qorxan var, nə də Afrikanın hansısa ölkəsində. Artıq içi boş hegemonluq iddiası Trampdan daha çox ABŞ-ın başına bəla olub. Çünki D.Tramp bu siyasətinə davam edərsə, ABŞ üçün ən ağır situasiyanın və daxili siyasi çaxnaşmanın pik həddinə çatması qaçılmaz olacaq. Hətta ştatların parçalanmasına qədər...

# Moskvadan İrəvana “Taşir" hücumu

*Rusiya Ermənistana erməni əsilli milyarderlə həmlə edir və...*



Əvvəli Səh. 4

Başqa sözlə, bu şəxs Xilaskarın Enişinin Müqəddəs Taxt-tacının qarşısında oxuduğu və imzaladığı subay kahinlik andını da pozmuşdur və buna görə də yalançı şahidlik səbəbiylə xaric edilməlidir. ”İndi bu sualları verərək, mən Kilsəyə qarşı mübarizə aparıram, yoxsa Erməni Apostol Müqəddəs Kilsəsinin dəyərləri uğrunda mübarizə aparıram? Mən Kilsəyə qarşı mübarizə aparıram, yoxsa onun müqəddəs yerlərini murdarlayanlara qarşı? Əlbəttə, mən kilsəmizin ziyarətgahlarını murdarlayanlara qarşı çıxmışam və sadiq üzvü olduğum Erməni Apostol Müqəddəs Kilsəsi və onun sadiq sürüsü naminə mübarizə aparıram”, baş nazir deyib.

## Bəs əks-cəbhədə nə düşünürlər?

Ermənistan Respublika Partiyasının icra orqanının üzvü Eduard Şarmazanov bəyanat yayıb: ”Respublika partiyası Samvel Karapetyana qarşı hərəkətlərini qətiyyətlə pisləyir. Ona qarşı təslim rejimin hərəkətləri hədsiz və qəbuledilməzdir. Mən partiyanın İcra orqanının nümayəndəsi kimi nikolist, anti-xalq və dövlət əleyhinə rejimin hörmətli xeyriyyəçiyə qarşı yönəlmiş hərəkətlərini qətiyyətlə pisləyirəm. Rejimin bu addımları milli kimliyə qarşı başlatdıqları savaşın davamıdır. Samvel Karapetyan təkcə erməni kilsəsinin ən böyük xeyriyyəçilərindən biri deyil, həm də Ermənistan-Artsax-Diaspora birliyinin tərəfdarıdır. Nikolist rejimin ona hücumu qəbuledilməz və biabırçıdır. Respublika Partiyası Samvel Karapetyanı dəstəkləyir və nikolizmə qarşı həlledici mübarizəni son məğlubiyyətə qədər davam etdirmək əzmindədir”.



## Seyran Ohanyan da danışdı

Keçmiş müdafiə naziri, Milli Məclisin ”Ermənistan” fraksiyasının rəhbəri Seyran Ohanyan Karapetyan ailəsinə dəstəyini ifadə edib: ”Siz həmişə Ermənistana, Kilsəyə yaxın olmusunuz. Ölkəmizin tarixinə verdiyiniz töhfə əhəmiyyətlidir və hörmətə layiqdir. Ömründə heç nə yaratmayan, bu ölkəyə heç nə verməyən, Qarabağı təslim edən, Ermənistanı gözdən salan və indi də müqəddəslərin müqəddəsinə - Erməni Apostol Kilsəsinə əl qaldıran bir adam sizin qarşınıza çıxıb. Görünən odur ki, mənəviyyatını itirmiş, xalqına, kilsəsinə xəyanət edən hakimiyyət ölkəmizin gələcəyində nə yeri, nə də rolu olmayacağını anlayaraq bu gün təşviş içərisindədir”.

## Bəs Moskvanın ağır artilleriyası nə düşünür?

RT-nin baş redaktoru Marqarita Simonyan Ermənistanın baş naziri Nikol Paşinyanın biznesmen Samvel Karapetyanı həbs etmək cəhdlərini şərh edərkən, respublika hökumətinin başçısının ”ölməz kimi həyəcanlandığını” vurğulayıb. ”Özünü bütün ermənilərin lideri kimi qələmə verən ”əfəndi” Paşinyan hazırda Ermənistanda bütün ermənilərin əsl lideri Samvel Karapetyanı həbs etməyə çalışır. Ermənilərin ruhani lideri katolikos II Qareginlə görüşdüyünə görə. ”Taşir” Şirkətlər Qrupunun rəhbərinə ”Bura Kaluqanın Nijni Tapr kəndi deyil. Bura Ermənistan Respublikasıdır. Ümid edirəm ki, dövlətin dadı ağzınızda qalacaq” ifadəsi ilə müraciət edən Paşinyanın sözlərinə RT-nin baş redaktoru belə cavab verib.

Qeyd edək ki, bundan əvvəl İrəvanda təhlükəsizlik qüvvələrinin Samvel Karapetyanın evində axtarış aparmağa gəldiyi barədə məlumatlar yayılmışdı. İş adamı bundan əvvəl Ermənistan hakimiyyətinin Paşinyanın narazılığına səbəb olan Erməni Apostol Kilsəsinə hücumları fonunda ona dəstək ifadə etmişdi. İş adamı isə öz növbəsində bəyan edib ki, ”kiçik bir qrup insan Ermənistanın və kilsənin min illik tarixini unudaraq ÜEK-a hücum etməyə başlayıb”.

## Solovyov: ”Ermənilər, kim olduğunuzu xatırlayın!”

”Ermənistan xalqı hələ də ölkənin taleyində iştirak edir? Yoxsa tezliklə Artsaxın başına gələn eyni aqibəti yaşayacaqlar?. Qüsursuz bir şöhrətə malik olan bu adam, qanunsuz həbsə cəhdə məruz qaldığı kilsənin müdafiəsinə qalxdı”. Teleaparıcı Vladimir Solovyov ”Taşir” Şirkətlər Qrupunun rəhbəri Samvel Karapetyan ətrafında baş verənləri belə şərh edib. ”Vladimir Solovyovla axşam” verilişində o, Karapetyanın Ermənistan üçün hamıdan çox iş gördüyünü xatırladıb - o, çoxlu sayda iş yerləri yaradıb və həmişə ən çətin anlarda Ermənistanın köməyinə gəlib. Solovyov erməniləri Paşinyana qarşı kökləmək üçün ideoloji təsir imkanlarını var gücü ilə işə salır: ”Ermənilər, siz kim olduğunuzu xatırlayın. Böyük bir xalqdır, böyük xristian ənənəsinə malikdir. Onlar Ermənistanın tarixinin və erməni xalqının mövcudluğunun dayandığı ən son şeyi əlinizdən alırlar. Kilsənizi əlindən almağa çalışırlar. Biz Ermənistanın daxili işlərinə qarışmırıq və Ermənistan xalqı hələ də ölkənin taleyində iştirak edirmi? Yoxsa onlar da tezliklə eyni əziyyəti çəkəcəklər?

Bundan əvvəl hakim ”Mülki müqavilə” fraksiyasının rəhbəri Hayk Konjoryan bildirib ki, Ermənistanın Elektrik Şəbəkələrinin milliləşdirilməsi məsələsini müzakirə etməyin vaxtı çatıb. O, bunu şirkətin sahibi Samvel Karapetyanın Erməni Apostol Kilsəsini müdafiə edən çıxışından sonra deyib. Hazırda biznesmen Ermənistanın rəsmi orqanları tərəfindən əsassız təqiblərə məruz qalır. Onun evində axtarışlar o, açıq şəkildə Erməni Apostol Kilsəsinə dəstəyini ifadə edəndən dərhal sonra başlayıb və ”kiçik bir qrup insan Ermənistanın və kilsənin min illik tarixini unudaraq ona hücum etməyə başlayıb” deyə vurğulayıb.



Əldə olan məlumata görə, Ermənistan Daxili İşlər Nazirliyi 45 nəfəri saxlayıb. Karapetyanın özü hələ saxlanılanlar arasında deyil, öz evindədir. Onun qardaşı Karen Karapetyanın jurnalistlərə verdiyi məlumata görə, onlar həbsə hazırdırlar və hücumları əsassız adlandıraraq Milli Təhlükəsizlik Xidmətinin əməkdaşlarının gəlişini gözləyirlər.



## Əsəbi reaksiya

”Dövlət telekanalında bu cür naşılıqlar ölkələrimiz arasında münasibətlərə ciddi ziyan vurur”. Rusiyalı jurnalist Vladimir Solovyovun Ermənistan hakimiyyətinin Erməni Sahibkarlar Assosiasiyasının prezidenti, ”Taşir” şirkətlər qrupunun rəhbəri, məşhur erməni əsilli rusiyalı iş adamı Samvel Karapetyana misli görünməmiş təzyiqlər göstərməsi ilə bağlı sözləri Ermənistan parlamentinin spikeri Alen Simonyanda əsəbi reaksiyaya səbəb olub. Solovyov Rusiyanın ”Rossiya” telekanalında Samvel Karapetyanı dəstəklədiyini bildirib. O qeyd edib ki, dostu ”Ermənistanın tarixinə xəyanət edən, Artsaxı təslim edən, erməni xalqının tarixində müqəddəs olan hər şeyə xəyanət edən korrupsioner, rəzil, əhəmiyyətsiz bir hökumət” tərəfindən tamamilə görünməmiş təzyiqlərə məruz qalır.

O, Ermənistan hakimiyyətini erməni kilsəsinə hücum etməkdə, erməni gerbini dağıtmaqda, erməni xalqının tarixinin ən dəhşətli faciəsinin xatirəsinə xəyanət etməkdə və ermənilərin İrəvanda görünməzdən əvvəl yaşadıqları Artsaxı verməkdə ittiham edib.

”Ermənistan xalqı hələ də Ermənistanın taleyində iştirak edirmi? Yoxsa Artsaxın başına gələn eyni aqibət onların da başına gələcəkmi?” Solovyov soruşub. Simoyan buna cavab olaraq özünün Telegram kanalında jurnalisti Ermənistanın daxili işlərinə qarışmaqda ittiham edib. ”Bu televiziya çılğın adamının ölkə rəhbərini çirkin sözlər adlandırmağa, Ermənistan xalqını qanuni seçilmiş hakimiyyətə qarşı siyasi fəaliyyətə çağırmağa, hisslər üzərində oynamağa, bütün bu ucuz cəfəngiyyatları daşımağa, onu pafoslu hərəkətlərə bürüyüb - eyni zamanda ”bu, daxili işlərə qarışmaq deyil” deməklə kifayətləndiyinə ümid bəsləməyə haqqı varmı? Bu, Ermənistan Respublikasının daxili işlərinə birbaşa müdaxilə, onun rəhbərliyinə və xalqına qarşı qəsdən nifrət və təhqirin yayılmasıdır”, - o yazıb. Eyni zamanda, Simonyan əmin olduğunu bildirib ki, dövlət televiziya kanalında bu cür çaşqınlıqlar ölkələrimiz arasında münasibətlərə ciddi ziyan vurur və yalnız Ermənistan əhalisi arasında dərin ikrah hissi yaradır.

”Ümid edirəm ki, bu cür hadisələri dəfələrlə müzakirə etdiyimiz rusiyalı həmkarlarım reaksiya verəcək və Ermənistan cəmiyyəti də eyni kanalda, eyni təmtəraqlı ”bədii” tərzdə açıq-aydın üzrxahlıqları eşidəcək”, - deyə spiker yekunlaşdırıb. Maraqlıdır, Rusiya ”yolunu azmış” Paşinyana yeri göstərmək üçün ən ağır çəkililəri ni qabağa verib. Nə üçün, məgər başqaları yoxdurmu, yoxsa Kremlin ümidi Marqarita Simonyana və Vladimir Solovyova qalıb? ”Bəli”dən başqa cavab tapa bilmədim.

**V.VƏLİYEV**

# Təqaüd və müavinət artımı cəmiyyətdə necə qarşılandı?




***Prezident İlham Əliyev tərəfindən imzalanmış sosial müavinət və təqaüdlərin artırılması ilə bağlı sərəncam cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Sərəncama əsasən, aztəminatlı ailələrin, əlilliyi olan şəxslərin, şəhid ailələrinin və digər həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə müxtəlif müavinət və təqaüdlər əhəmiyyətli dərəcədə artırılıb. Bu mühüm sosial qərarın vətəndaşlar tərəfindən necə qarşılandığını öyrənmək məqsədilə paytaxt sakinləri arasında sorğu keçirdik. Bəs vətəndaşlar bu barədə nə düşünürlər? SİA mövzu ilə bağlı sorğu edib.***

**Tələbə Tahir Məmmədzadə:** "Tələbəyəm və hazırda həm oxuyur, həm də yarımştat işləyirəm. Təqaüdlərin artırılması bizim kimi gənclər üçün də çox vacibdir. Bu artım nəticəsində heç olmasa ki-



tab, internet, yemək xərclərinin bir hissəsini qarşılamaq mümkündür. Lakin yenə də tələbə ehtiyaclarına tam cavab vermir. Təqaüd alan tələbələrin sayının da artırılması vacibdir.

Həmçinin kirayə evlərdə qalan tələbələr üçün əlavə dəstək proqramları olmalıdır. Bu artımı bir başlanğıc kimi görürəm, amma davamlı dəstək olmasa, çətinliklər davam edəcək. Tələbə gənclərin daha yaxşı təhsil alması üçün bu cür təşəbbüslər genişlənməlidir."

**Tələbə Vasif Məmmədli:** "Ümumiyyətlə, sərəncamdan xəbərim var və müsbət qarşılayıram. Mən də tələbə olduğum üçün bu artımlardan yararlanacağımı düşünürəm. Ailədən uzaqda yaşayıram,



gündəlik xərclər çoxdur - yemək, nəqliyyat, dərs vəsaitləri və s. Əgər bu dəstək bizə də şamil olunacaqsa, böyük kömək olacaq. Tələbələrin əksəriyyəti əlavə işlərlə məşğul olur ki, özlərini güclə dolandırsınlar. Ona görə bu cür sosial artımlar bizim kimi gənclər üçün həm maddi, həm də mənəvi dəstəkdir. Əsas odur ki, bu prosesdə sənəd toplamaq çox çətin olmasın. Yəni, prosedurlar sadələşdirilsə, daha çox tələbə faydalana bilər".

**Tələbə Aylin Məmmədova:** "Bu artım barədə xəbəri sosial şəbəkələrdə gördüm. Açığı, tələbə kimi hər ay aldığım təqaüdün artırılması mənim üçün çox müsbət bir xəbərdir. Kitab, yol pulu, yemək xərcləri getdikcə artır və əvvəlki



məbləğ heç nəyə çatmırdı. Bu artım bir qədər nəfəs almağa imkan verir.

Düzdür, tam yetərli deyil, amma heç olmasa müəyyən ehtiyaclarımı qarşılaya biləcəyəm. Mənim kimi ali təhsil alan tələbələrin bir çoxu əlavə işlərlə məşğuldur. Təkcə oxumaqla keçinmək çətindir. Düşünürəm ki, bu artım bir başlanğıcdır və daha böyük addımlar da atılmalıdır."

**Tələbə Sevinc Rəhimova:** "Valideynlərim də işləyir, amma Bakıda yaşamaq ucuz deyil. Mən tələbə təqaüdü alıram və bu artım mənim üçün böyük əhəmiyyət kəsb edir. Ən azı kirayədə yaşayan tələ-



bələr üçün kiçik də olsa, maddi dəstəkdir. Bəzən bir kitab almaq üçün aylarla gözləməli olurduq. Bu artım o qədər də böyük olmasa da, mən bunu müsbət qarşılayıram. Amma uzunmüddətli perspektivdə daha ciddi sosial layihələr və təhsil dəstəkləri lazımdır. Təqaüdlər, tələbələrə yalnız simvolik deyil, real dəstək səviyyəsində olmalıdır."

**Şəhər sakini Dünyazər Şəfiyeva:** "Sağ olsun Prezident ki, xalqı yaddan çıxarmır, bu çətin vaxtda belə bir sərəncam verdi. Sosial baxımdan ehtiyacı olan ai-



lələr çoxdur, xüsusilə də gənclər, kirayədə yaşayanlar üçün bu artım yaxşıdır. Mən özüm yaşlı adamam, təqaüdlə dolanıram, bilirəm bu həyat nə qədər ağırdır. Amma açığı, o imtiyazların alınması üçün o qədər sənəd istəyirlər ki, adam nəyi hara təqdim etməli olduğunu çaşır. Elə bil hər şey var, amma çatmaq çətindir. Buna baxmayaraq, artım ailələr üçün az da olsa bir dayaqdır. Əgər bir az da sadələşdirsələr, daha çox adam faydalana bilər. İstəyimiz odur ki, bu cür qayğı davamlı olsun, təkcə bir dəfəlik deyil. Dövlətin bu cür addımları xalqın ürəyindən xəbər verir".

**Şəhər sakini Nicat Ağayev:** "Artımla bağlı xəbəri televiziyada gördüm. İlk baxışda müsbət qarşıladım. Ailədə gündəlik xərclər kifa-



yət qədər çoxdur - uşaqların məktəb ehtiyacları, gündəlik ərzaq, kommunal ödənişlər. Belə bir zamanda verilən dəstək heç olmasa bir qədər rahatlıq yaradır. Əlbəttə, bu artımı kifayət qədər böyük saymaq çətindir. Amma düşünürəm ki, kiçik də olsa, bir irəliləyişdir. İnsanlar daha çox sabitlik və güvən axtarır. Sosial dəstəyin davamlı olması çox vacibdir.

Hər ay bir az da olsa bu kimi dəstəyin verilməsi vacibdir. Yalnız bayram və ya seçki ərəfəsində deyil, daim insanlara diqqət göstərilməlidir. Düşünürəm ki, daha konkret sosial proqramlara ehtiyac var. İnsanlar sırf yardım almaqla yox, rifah içində yaşamaqla özünü dəyərli hiss etməlidir. Bu artım bəlkə də bəzi ailələrin psixoloji yükünü azaldacaq. Amma qiymət artımı davam etdikcə bu cür dəstəklər çox tez hiss olunmaz hala gəlir. Ən azı belə bir qərarın verilməsi göstərir ki, sosial məsələlər gündəmdədir. Bu da müsbət siqnaldır."

**Şəhər sakini Fəridə Babayeva:** "Bu artımı eşidəndə sevindim, amma açığı gözləntilərim daha böyük idi. Qiymətlər hər gün artır, bazarda heç nə əvvəlki kimi deyil. Müavinət və təqaüdlər bir az artsa da, bu, real tələbatı tam qarşılamır. Mən artıq pensiyadayam, illərlə işlədim, vergi verdim. İndi isə dərman almaq, kommunal ödəmək, gündəlik ərzaq almaq elə bil dəbdəbəyə çevrilib.

Hökumətin bu addımını müsbət sayıram, çünki heç nə etməməkdənsə, nəsə etmək yaxşıdır. Amma artım məbləği çox azdır, xüsusən də kirayədə və ya tək yaşayan yaşlılar üçün. Əgər qiymətlərə nəzarət olmasa, bu artımın heç bir



təsiri olmayacaq. Həm də biz yaşlılar üçün əsas olan sabitlik və sabahkı günə inamdır. Təkcə müavinət yox, sağlamlıqla bağlı dəstəklər də artırılmalıdır. Həkimə getmək, analiz vermək - bunların hamısı əlavə xərcdir.

***Günel Rəşadqızı***

# Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib

Mərkəzi Gömrük Hospitalında Dövlət Gömrük Komitəsi rəhbərliyinin iştirakı ilə 17 iyun-Tibb İşçilərinin Peşə Bayramı Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən uğurlu dövlət siyasətindən, bu istiqamətdə son illərdə reallaşdırılan yeniliklərin əhəmiyyətindən bəhs edilib. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin səhiyyəyə göstərdiyi diqqət və qayğı hazırda da dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən səhiyyə sistemində həyata keçirilən məqsədyönlü islahatlar və qoyulan genişmiqyaslı investisiyalar sayəsində bu sahə











müasir standartlara uyğun olaraq daim təkmilləşdirilir, vətəndaşlara göstərilən tibbi xidmətlərin keyfiyyəti daha da yüksəlir.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkə vətəndaşlarının sağlamlığının qorunması, tibbi xidmətlərin əlçatanlığının artırılması, əhalinin həssas təbəqələrinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması məqsədilə bir sıra əhəmiyyətli layihələr həyata keçirilir. Ölkəmizdə əhalinin yüksək səviyyəli tibbi xidmətlə təmin olunması istiqamətində Mərkəzi Gömrük Hospitalının kollektivinin uğurlu fəaliyyət göstərdiyi vurğulanıb.

Tədbirin sonunda Mərkəzi Gömrük Hospitalının fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.



MƏTANƏT

## Bizdə piknik...

**18 iyun Dünya Piknik Günüdür. Piknik mövsümü də xeyli vaxtdır başladığı üçün bu barədə bir qədər söhbət açmağın yerinə düşdüyünü zənn etdim. Piknik nədir? Əvvəllər lüğətimizdə olmayıb sonradan xeyli söz kimi özünü dilimizə daxil edib piknik. Pikniki lüğətimizə daxil edənlər onun qrup şəklində istirahət mənasında olduğunu qeyd ediblər.**

Lakin təəssüf ki, piknik deyiləndə bizdə gözlər önünə gələn ilk görüntü zibillik olur. Yəni insanlar düşünürlər ki, mən gedirəm piknikə, yəni ki, abad bir yeri bərbad etməyə. Yəni ki, təmiz bir yeri zibilləməyə. Yəni ki, gedib yeyib-içib, tullantıları da elə oraya dağıdıb gəlməyə. İnanırsınız, inanın, inanmırsınız da, bu, sizin öz işinizdir, piknik bizdə zibilləmək deməkdir.

Yaxşı, bəlkə də qalxıb mənim dediklərimlə razılaşmayanlar olacaq. Olsun, nə deyirəm ki... Razılaşmamaq olar, lakin dediyin sözü sübut etməlisən. Bunun üçün də indi ki, piknik mövsümü başlayıb, çıxsın gəzməli-görməli yerlərə, parklara, meşələrə, harada bir qrup adamın yığışdığını, əyləşdiyini görsəniz, bilin ki, onlar piknikdədirlər. Bir qədər əziyyət çəkin, gözləyin, onlar qalxıb gedəcəklər. Burada gördüklərinizdən sonra mənimlə razılaşacaqsınız ki, bizdə piknik zibillik deməkdir. Pikniklə bağlı yaranan söz, söz birləşmələri və cümlələr:

-Piknik-zibil

-Piknikə gedirəm-zibilləməyə gedirəm

-Piknikdən gəlirəm-abad yeri bərbad etməkdən gəlirəm

-Gözəl piknik etdik-ətrafı yaxşıca zibillədik

-Bu həftə piknikə getməyək?-bu həftə yaşıllıqları zibilləməyək

Bax, dilimizə daxil olan bu sözdən qaynaqlanan arzu və istəklər yalnız yuxarıdakıları ifadə edir.

Yaxşı piknik etməyi qoyaq bir kənara. Molla əminin ruhunu çağırıb onunla bir qədər söhbətləşdim. Dedim, ay Molla əmi, dilimizi yaman günə qoyublar, gəl, gör. Gündə bir sözü lüğətə daxil edirlər. Molla əmi nə desə yaxşıdır?

- Əlbəttə, səninlə razıyam. Çünki mən bu insanları yaxşı tanıyıram. Bunlar biz zaman küftəyə "qofta" deyən abrazovannılardır da. İndi də istirahətə piknik deyirlər. Ay bala, sən bizim yanımızda uşaqsan. Biz bu insanlara illərlə dedik-dedik, bir qulaqlarından alıb o birindən ötürdülər havaya. İndi sən nəyi qoyub, nəyi danışırsan? Bilirəm, yaxşı bilirəm ki, bunlar düzələn deyil. Ona görə də barı siz dayanıb-durmayın. Bir ucdan yazın ki, bəlkə arada bir nəfərin qulağının açıq vaxtına düşər, eşidər və o birilərə də deyər...

Yaxşı, piknikə "istirahət" demirik, heç olmasa istirahət etdiyimiz yerləri bərbad etməyək...

# "Gələn həftə çox vacib olacaq..." - Tramp yenə hədələdi!




***Amerika lideri Donald Tramp ABŞ-ın İsrail və İran arasındakı münaqişəyə müdaxilə ehtimalı ilə bağlı sualı cavablandırmaqdan yayınıb. SİA-nın məlumatına görə, Ağ Ev rəhbərinin sözlərini Reuters agentliyi yayıb.***

"...ABŞ-ın İrana zərbə vurub-vurmayacağını dəqiq deyə bilmərəm. Bəlkə, bəlkə də" - Amerika prezidenti jurnalistlərə cavab verib. D.Tramp daha sonra bildirib ki, İran nümayəndələri Vaşinqtonla əlaqə saxlayıb və Ağ Evə gəlməyi təklif ediblər. Ağ Ev rəhbəri bildirib ki, İran danışıqlar aparmaq istəyir, önümüzdəki həftə əhəmiyyətli olacaq. "İran danışıqlar aparmaq istəyir. Heç vaxt gec deyil. Gələn həftə və ya bəlkə də yaxın bir neçə gün çox vacib olacaq". - D.Tramp bildirib.

*Əli Babayev*

MÜNASİBƏT

# ”Əsas məsələ təhsilin keyfiyyəti, həyatla əlaqəliliyidir”

**“Yerli və xarici universitetlərdə təhsil almağın üstünlükləri və fərqləri çox vaxt müzakirə olunur. Amma burada əsas məsələ təkcə təhsil almağın yerindən yox, təhsilin keyfiyyətindən, məqsədyönlülüyündən və gələcəkdəki nəticələrindən asılıdır”. Bu sözləri SİA - ya açıqlamasında ali təhsil üzrə ekspert, Ped.ü.f.d. Vüsal Kərimli deyib.**



O bildirib ki, əvvəla, xaricdə təhsil almağın özü-özlüyündə üstünlük olması haqqında ümumi bir fikir formalaşıb: ”Lakin bu, tam olaraq doğru deyil. Xaricdə təhsil almağın faydası yalnız və yalnız hansı universitetdə və hansı proqramla təhsil alındığına görə qiymətləndirilə bilər. Əgər siz dünyada tanınmış, yüksək reytinqli bir universitetdə, məsələn, QS və ya Times Higher Education sıralamalarında olan bir ali məktəbdə oxuyursunuzsa, bu, sizin üçün böyük üstünlükdür. Xüsusilə də, bu təhsili dövlət proqramı, beynəlxalq təqaüdlər və ya müsabiqə yolu ilə əldə etmisinizsə, bu, həm də sizin intellektual səviyyənizin göstəricisidir. Bu cür təhsil həm bilik baxımından zəngin olur, həm də sizin gələcəkdə iş dünyasında daha inamla addımlamağınıza imkan yaradır. Çünki həmin universitetlərdə siz ən müasir elmi yanaşmalarla, praktiki layihələrlə, müxtəlif ölkələrdən gəlmiş tələbələrlə birgə işləməklə qlobal şəbəkənin bir hissəsinə çevrilirsiniz. Bu, artıq sadəcə diplom deyil, həm də dünya vətəndaşı olmaq bacarığı deməkdir. Amma gəlin, bir məsələni də unutmayaq. Xaricdə ali təhsil almaq üçün müraciət etdiyiniz universitetin keyfiyyəti çox önəmlidir.







Bəzən olur ki, tələbələr sadəcə xaricdə oxumaq xatirinə tanınmamış və zəif universitetlərə gedirlər. Bu halda həmin təhsilin real nəticəsi, keyfiyyəti və gələcəkdəki təsiri çox aşağı ola bilər. Hətta Azərbaycanın nüfuzlu universitetlərində təhsil almaq belə, bu tip xarici təhsildən daha faydalı ola bilər.

İndi isə keçək yerli universitetlərə. Son illər Azərbaycanda da təhsil sistemi müəyyən islahatlar və müasirləşmə mərhələsi keçir. Xüsusilə, ADA Universiteti, Bakı Ali Neft Məktəbi, UNEC, Bakı Dövlət Universiteti və Azərbaycan Tibb Universiteti kimi ali təhsil müəssisələri artıq beynəlxalq proqramlarla inteqrasiya olunur. Onlar beynəlxalq müəllimləri dəvət edir, xarici universitetlərlə ikili diplom proqramları həyata keçirir və tələbələrə geniş imkanlar yaradır. Hətta bir çox tələbə bu universitetlərdə təhsil alaraq əla biliklər, müasir yanaşmalar və güclü tədris bacarıqları qazanır. Eyni zamanda yerli təhsilin üstünlükləri də var: mədəni və dil baxımından adaptasiya problemi olmur, ailə dəstəyi yaxındır, maddi baxımdan daha münasibdir. Amma bu üstünlüklər yalnız o zaman əhəmiyyətlidir ki, tələbə özü də aktiv olsun, öz üzərində çalışsın, təhsili ciddiyə alsın.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki: Yaxşı universitet, yaxşı müəllim və güclü proqram varsa, istər yerli, istərsə də xarici, fərq etmir, həmin təhsil sizin üçün faydalı olacaq. Təhsilin əsas məqsədi təkcə diplom almaq yox, bacarıq qazanmaq, düşünməyi öyrənmək və gələcəkdə özünə güvənən mütəxəssis olmaqdır.

Xaricdə təhsil - qapalı bir məqsəd yox, düzgün planlaşdırılmış, perspektivli və keyfiyyətli bir addım olmalıdır. Yerli təhsil isə düzgün yanaşma ilə, əlavə kurslar, xarici proqramlarda iştirak və davamlı inkişafla güclü nəticələr verə bilər. Təhsilin dəyəri onun coğrafiyasından yox, onun keyfiyyətindən və sizin onu necə istifadə etdiyinizdən asılıdır.



Bu gün Azərbaycanda həyata keçirilən regionların inkişafına yönəlmiş proqramlar, xaricdə təhsil almış gənclərin potensialından istifadə etməklə daha da səmərəli həyata keçirilə bilər. Xaricdə təhsil almış gənclərin öz bölgələrinə qayıdaraq müxtəlif sahələrdə çalışmaları, xüsusilə də idarəetmə və ictimai xidmət sektorlarında işə cəlb olunmaları çox vacibdir. Bu proqramlar təkcə inzibati idarəetmə sahələrini əhatə etmir, eyni zamanda sosial, iqtisadi və maarifləndirmə fəaliyyətlərinə də töhfə verir. Xaricdə təhsil almış və müəyyən sahədə təcrübə toplamış gənclər, həm nəzəri biliklərini, həm də beynəlxalq təcrübələrini ölkədə tətbiq etmək potensialına sahibdirlər. Burada əsas məsələ, onların seçim kriteriyaları və yerləşdirmə prinsiplərinin şəffaf və səmərəli olmasıdır. İlk növbədə, universitet seçimi və ixtisas çox vacibdir. Yəni, həmin şəxs hansı sahə üzrə təhsil alıb? Hansı universitetin məzunudur? Bu universitet beynəlxalq miqyasda tanınırmı? Bu suallar cavablandırıldıqdan sonra onların proqramlarda iştirakı və uyğun bölgələrə təyinatı daha məqsədyönlü olur.

Digər tərəfdən, universitetlərin keyfiyyəti və akkreditasiya məsələsi də önəmlidir. Bəzi hallarda lisensiyasız və ya zəif səviyyəli universitetlərdə alınan diplomlar real fayda verməyə bilər. Bu səbəbdən dövlətin, xüsusilə Təhsil Nazirliyinin rolunun gücləndirilməsi, həmin diplomların tanınması və uyğun sahələrə yönəldilməsi prosesi vacibdir. Belə yanaşmalar sayəsində biz əldə etdiyimiz beyin kapitalını səmərəli şəkildə ölkəmizin inkişafına yönəldə bilərik. Xaricdə təhsil almış gənclər bu gün yalnız fərdi uğurları ilə deyil, cəmiyyətə verdikləri töhfələrlə də qiymətləndirilməlidirlər. Birinci növbədə qeyd etmək lazımdır ki, universitet seçimi gələcəyin formalaşmasında çox vacib rol oynayır. Çünki sabahın peşəkarları cəmiyyətə töhfə verəcək insanlar bu gün hansı təhsil müəssisəsində, hansı səviyyədə təhsil alırlarsa, onların gələcəkdə tutacaqları mövqe və göstərdikləri fəaliyyət birbaşa bununla əlaqəlidir. Tələbələr və onların valideynləri universitet seçərkən yalnız diplom əldə etmək məqsədilə deyil, həm də həmin universitetin tədris sistemi, akademik mühiti, təcrübə imkanları və məzunlarının uğur göstəriciləri kimi amillərə diqqət yetirməlidirlər. Təəssüf ki, bəzən bəzi tələbələr və ya ailələr universitetin adını tanımadan, ya da tədris keyfiyyətindən xəbərsiz şəkildə seçim edirlər. Bu isə sonradan onların həm peşə sahəsində, həm də şəxsi inkişaf baxımından qarşılaşdıqları çətinliklərə səbəb ola bilər. Gələcəyin təminatı yalnız diploma ölçülmür. Əsas məsələ təhsilin keyfiyyəti, tətbiq olunma imkanları və həyatla əlaqəliliyidir. Əgər bir universitet tələbələrinə nəzəri biliklə yanaşı, real bacarıq və praktik hazırlıq da verirsə, bu zaman o məzunlar daha rahat şəkildə cəmiyyətə inteqrasiya olunur, əmək bazarında uğur qazanır. Əlavə olaraq, universitet mühiti insanın şəxsiyyətinin formalaşmasına, dəyərlərinin bərqərar olmasına, həmçinin cəmiyyətə necə yanaşacağına da təsir göstərir. Yəni universitet təkcə bilik yeri deyil, eyni zamanda mədəniyyət, məsuliyyət və düşüncə tərzi qazandıran bir məktəbdir. Əgər bu təhsil prosesi düzgün qurularsa və tələbə bu prosesə ciddi yanaşarsa, o zaman gələcəkdə ölkə üçün, cəmiyyət üçün təhlükə yox, fayda mənbəyi olacaq peşəkar bir fərd kimi yetişəcək”.

”Gələcəyə baxış artıq daha aydındır, bu günün sürətlə dəyişən dünyasında texnologiyanın tətbiqi və ona uyğunlaşma əsas şərtlərdən biridir. Artıq texnologiya yalnız rahatlıq vasitəsi deyil, təhsildən səhiyyəyə, iqtisadiyyatdan təhlükəsizlik sahəsinə qədər hər bir sahədə məcburi keçid mərhələsidir. Bu dəyişikliklərə ayaq uydurmaq, yalnız avadanlıq və proqram təminatı ilə kifayətlənmir. Eyni zamanda, cəmiyyətin texnoloji savadlılığı, insan kapitalının intellektual hazırlığı, yeni sistemləri düzgün başa düşməsi və tətbiq edə bilməsi də vacib şərtlərdir. Mən çox istərdim ki, insanlar bu məsələlərə diqqətlə yanaşsınlar, dinləsinlər, başa düşsünlər ki, bu sadəcə modernlik deyil, çox ciddi və strateji bir məsələdir. Texnologiyaya biganə yanaşmaq, yaxud onu səthi qəbul etmək, gələcəkdə böyük sosial, iqtisadi və siyasi boşluqlara səbəb ola bilər. Texnologiya yalnız cihazlar deyil. O, həm də fikir tərzi, qərarvermə metodu və sosial münasibətlərdə yeni yanaşmadır. Kim bu istiqamətdə irəliləyir, o da gələcəyin qurucusu olur. Kim geri qalırsa, risk altında qalır” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# İran-İsrail savaşında məqsəd güdənlər

## Hərbi əməliyyat qonşuları üçün təhlükə yaradır

***İsraillə İranın qarşıdurması təkcə Yaxın Şərqdə deyil, onun hüdudlarından kənarda da sabitliyi pozmaq təhlükəsi yaradır, Cənubi Asiya və postsovet məkanına təsir edir. İranın qonşuları risk altındadır və hər bir ölkə öz problemləri ilə üzləşir. İraq şiələrin İranı dəstəkləyən silahlı qiyamının qarşısını almağa çalışarkən, Pakistan və Azərbaycan onlara qarşı açılan informasiya müharibəsi zamanı onları münaqişəyə cəlb etmək cəhdlərinə qarşı mübarizə aparır.***



Azərbaycanın neytral mövqe tutduğunu Xarici İşlər Nazirliyinin 13 iyun tarixli bəyanatından da görmək olar: "İsrail Dövləti tərəfindən İran İslam Respublikasının ərazisinə qarşı həyata keçirilmiş hərbi əməliyyatlardan ciddi şəkildə narahatıq. Vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırırıq. Mülki əhalinin və obyektlərin təhlükəsizliyinin təmin edilməsinin vacibliyini xüsusi olaraq vurğulayırıq. Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə diplomatik yollarla təmasların və müvafiq beynəlxalq mexanizmlər çərçivəsində səylərin davam etdirilməsi əhəmiyyət kəsb edir".

Amma bəzi qüvvələr İrana qonşu olan ökələri də münaqişə iştirakçısı qismində dörmək arzusu ilə müxtəlif yalanlar uydurur, baş vermiş hadisələrdə onların iştirakını sübut etməyə çalışırlar. Azərbaycanla bağlı cəhdlər də az deyil və əsasən media üzərindən aparılan təbliğatda ölkəmizin tərəflərdən birini dəstəklədiyi haqda həqiqətə uyğun olmayan xəbərlər tirajlayırlar. Təbii ki, feyk xəbərləri çevik şəkildə yayan düşmən qüvvələrin müharibə aparan tərəflərlə Azərbaycanı düşmən etmək niyyəti ortadadır. Əlbəttə, bu, təhlükəlidir. Çünki müharibə aparan, yaxud münaqişəyə cəlb olunmuş ölkənin bu xəbərləri araşdırmaq imkanı məhduddur.

İyunun 17-də İranın xarici işlər naziri Abbas Əraqçi ilə İraqın xarici işlər naziri və baş nazirin müavini Fuad Hüseyn arasında telefon danışığı olub. "Sionist varlıq (İsrail) Fars körfəzi regionunu özünə cəlb etməklə müharibəni genişləndirməyə çalışır. İranın mövqeyi aydındır: o, istər coğrafi, istərsə də hər hansı digər ölkə ilə münasibətdə münaqişənin yayılmasını rədd edir. İranın davam edən əməliyyatları müdafiə cavabının bir hissəsi kimi həyata keçirilir, sionist tərəflərə qarşı yönəlmiş digər hücumlara qarşı deyil". Əraqçi söhbət zamanı bildirib.

AFP-nin iyunun 17-də verdiyi məlumata görə, əhalisinin əksəriyyətini şiələr təşkil edən və ABŞ-la müttəfiq olan İraq hökuməti ölkəni münaqişəyə cəlb etməkdən çəkindirməkdə getdikcə çətinləşir. AFP öz mənbələrinə istinad edərək qeyd edir ki, şiə radikalların İraqdakı hücumlarının hədəfi Amerikanın İraqdakı hərbi bazaları, ABŞ-ın Bağdaddakı səfirliyi və Ərbildəki konsulluq ola bilər. Bu, Tehran üçün son dərəcə əlverişsizdir, çünki ABŞ-ı müharibəyə cəlb etməklə hədələyir. Digər tərəfdən, İraq və Suriyada fəaliyyət göstərən "Kətaib Hizbullah" şiə silahlı qruplaşması artıq "bölgədəki hərbi əməliyyatları yaxından izlədiyini və Birləşmiş Ştatlar İsrail tərəfində müharibəyə girərsə, dərhal Amerikanın maraqlarına və bazalarına qarşı hərəkətə keçəcək" bəyanatını verib.

### Pakistan: Öz klubunuzu bədəninizə yaxın tutmaq

Yaxın Şərqdəki qarşıdurma İranın qonşusu olan Pakistanda ciddi sabitliyin pozulması ilə təhdid edir, bu ölkə özünün çoxsaylı problemləri ilə üzləşir və may ayında Kəşmirdə baş verən toqquşmadan sonra Hindistanla yeni münaqişə riski ilə üzləşir.

### İsrail və ABŞ Tehranı təslim olacağı ilə hədələyir

"Express Tribune" qəzetinin məlumatına görə, ölkənin İranla həmsərhəd olan cənub-şərqində yerləşən Bəlucistan əyalətinin səlahiyyətliləri təhlükəsizliyi təmin etmək və gözlənilməz insidentlərin qarşısını almaq üçün Qvadar və Pənçqur bölgələrindəki bütün sərhəd-keçid məntəqələrini bağlayıblar (İran-Pakistan sərhədinin uzunluğu 905 km-dir). Pakistan hakimiyyəti də vətəndaşları İrana səfərdən çəkinməyə və ayıq-sayıq olmağa çağırıb. Bundan əvvəl ölkənin xarici işlər naziri İshaq Dar X sosial şəbəkəsindəki səhifəsində 450 pakistanlı zəvvarın İrandan təxliyə edildiyini, həmçinin pakistanlı tələbələrin vətənə təhlükəsiz qayıtması ilə bağlı razılaşmaların əldə edildiyini açıqlamışdı.

Bununla belə, Pakistan İslamabadın İranla münaqişənin şiddətlənəcəyi təqdirdə İsrailə zərbə endirmək üçün Tehrana nüvə silahından istifadə edəcəyini vəd etdiyi iddia edilən məlumatların sızması ilə bağlı qalmaqaldan hələ də yayına bilməyib. "Bizim nüvə potensialımız Pakistan xalqının rifahına və ölkəmizi düşmənlərin düşmən planlarından qorumağa xidmət edir. Biz qonşularımıza qarşı İsrailin bu günlərdə açıq şəkildə nümayiş etdirdiyi hegemon siyasət yürütmürük", - Pakistanın müdafiə naziri Xavaca Məhəmməd Asif sosial mediada yazıb.

Pakistanın müdafiə nazirinin açıqlaması Məqsədli Müşahidə Şurasının katibi və İslam İnqilabı Keşikçiləri Korpusunun keçmiş rəhbəri general Möhsün Rezayinin İran dövlət televiziyası ilə çıxışında Pakistanın guya Təl-Əviv münaqişəni qızışdıracağı təqdirdə İranı dəstəkləməyə və İsrailə nüvə zərbəsi endirməyə razı olduğunu deməsindən sonra edilib. Pakistan Müdafiə Nazirliyi X sosial media platformasını "Pakistan və onun nüvə proqramına qarşı genişmiqyaslı əlaqələndirilmiş saxta təbliğat kampaniyası"nda ittiham edərək ayrıca bəyanat yayıb. Bəyanatda qeyd olunub ki, X-in sahibi İlon Mask platformanın "regionda ciddi eskalasiyaya səbəb ola biləcək" "dezinformasiya ocağına" çevrilməsindən məsuldur.

Daha əvvəl Pakistanın təhlükəsizlik xidməti İslamabadın qeyri-nüvə başlıqlı ballistik raketləri İrana ötürməsi ilə bağlı mediada yayılan xəbərləri təkzib etmişdi. "Bu cür xəbərlər həqiqətə uyğun deyil və Pakistana qarşı dezinformasiya kampaniyasının bir hissəsidir" deyə pakistanlı bir kəşfiyyat rəsmisi The Nation-a açıqlamasında vurğulayıb.

Azərbaycan sərhədləri açır?

Yaxın Şərq alovunun qığılcımları postsovet məkanına çatıb, İranın qonşusu Azərbaycan üçün çətin sınaq olub. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Abbas Əraqçı ilə telefon danışığı zamanı İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin, digər rəsmi şəxslərin və İran vətəndaşlarının vəfatı ilə bağlı iranlı həmkarına başsağlığı verib. Tərəflər münaqişənin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatiya yolu ilə həllinə çağırıblar.

Bundan əlavə, Ceyhun Bayramov vurğulayıb ki, Bakı Azərbaycan ərazisindən üçüncü ölkəyə, o cümlədən qonşu və dost İrana qarşı istifadə imkanlarını qəti şəkildə istisna edir. Bakının tərəflərdən birini dəstəkləməklə Azərbaycanın münaqişəyə cəlb edilməsinin mümkünsüzlüyü ilə bağlı rəsmi açıqlaması Telegram kanallarında yayılan saxtakarlıq axınının qarşısını ala bilməyib. Ən çox yayılanlar isə İslam Respublikasında strateji hədəflərə zərbələr endirmək üçün Azərbaycandan İrana uçduğu iddia edilən İsrail qırıcı və PUA-ları ilə bağlı şayiələr olub. Bu cür spekulyasiyalar Azərbaycanın İsraillə yaxın münasibətdə olması və Mossad kəşfiyyat şəbəkələrinin orada sərbəst fəaliyyət göstərməsi ilə bağlı yayılan feyk xəbərlərlə bağlıdır.

Bakıya qarşı başlayan informasiya müharibəsi fonunda Bakı Rusiya və digər ölkələrin vətəndaşlarını İrandan təxliyə etmək üçün koronavirus pandemiyasından bəri bağlı qalan sərhədlərini açıb. Vladimir Putinin mətbuat katibi Dmitri Peskovun iyunun 17-də verdiyi məlumata görə, rusların İrandan təxliyəsi Azərbaycanla sərhəddəki keçid məntəqəsi vasitəsilə həyata keçirilir. "Azərbaycanlı dostlarımız da əlverişli şərait yaradırlar, buna görə biz onlara çox minnətdarıq", - Dmitri Peskov əlavə edib.

İyunun 14-15-də Fyodor Bondarçukun çəkiliş qrupu, Rusiyanın xarici nümayəndəliklərinin əməkdaşlarının ailə üzvləri və Çaykovski Simfonik Orkestrinin artistləri də daxil olmaqla, azı 313 Rusiya vətəndaşı İrandan Azərbaycana təxliyə edilib. Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova Telegram kanalında Böyük Simfonik Orkestrinin çıxışını elan edib: "Belə çətin vəziyyətdə köməyə görə minnətdarlıq əlaməti olaraq Bakıda konsert keçirmək qərarına gəldik". Konsert iyunun 16-da Azərbaycan Dövlət Filarmoniyasında baş tutub. Orkestrin baş dirijoru Arseni Tkaçenko deyib: "Biz xoşbəxtik ki, təsadüfən Bakıya gəldik. Yaşadığımız stressdən sonra oynamaq bizim üçün, musiqiçilər üçün çox vacib idi və təbii ki, Azərbaycana təşəkkür etmək idi".

**V.VƏLİYEV**

# Sosialyönlü islahatlar: sistemli və davamlı yanaşma

## Prezident İlham Əliyev: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır"



***Dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilən Azərbaycanda həyata keçirilən islahatlar ölkəmiz ətrafında sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən imic formalaşdırıb. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur.***

Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir. Vətəndaş rifahının təminatı, sosial müdafiə sisteminin gücləndirilməsi Prezident İlham Əliyevin uğurlu siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimizin başçısının Fərman və Sərəncamları ilə 2018-2025-ci illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 5 sosial islahat paketi icra olunub və bu islahatlar üzrə ayrılan illik əlavə vəsait 7,6 mlrd. manat təşkil edir.

Ölkə Prezidentinin 23 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin əvvəlindən icra olunan sosial islahat paketi çərçivəsində əməkhaqqı və pensiyalarda edilmiş artımlar görülən işlərin davamıdır. 23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırıldı. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.





### SİSTEMLİ VƏ KOMPLEKS İSLAHATLAR

Həqiqətən də, bu sosial addımlar əhali tərəfindən böyük məmnunluqla qarşılanır. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Müasir, modern dövlət olaraq tanınan ölkəmiz Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində iqtisadi islahatları reallaşdırır, innovativ inkişafa yol açan dövlətə çevrilib. Əlbəttə ki, həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Prezident İlham Əliyev, çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir.

Azərbaycanda müharibə əlillərinə sosial dəstək proqramı həyata keçirilir. Proqramın icrasında müsbət nəticələr əldə olunub. Proqramın icrası işləri ilk gündən operativ və proaktiv təyinat mexanizmi, vətəndaş məmnunluğu prinsipi əsasında aparılıb. Cənab Prezident çıxışlarının birində vurğuladığı kimi, ”Biz bu müharibəni şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq”. Bu gün vətən torpaqlarının azad olunmasında sağlamlığını itirənlər və şəhid olanların ailələri dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunub. Azərbaycan dövləti və xalqı üçün əlbəttə ki, hər bir hərbçi əzizdir və dəyərlidir.

Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur. Azərbaycan Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamı müharibə əlilləri və şəhid ailələrinin dövlət tərəfindən mənzillə təminatı işlərinin sürətlənməsinə şərait yaradıb.

Bu günlərdə ”Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı sosial sahədə görülən işlərin davamıdır. Fərmana əsasən, bu il iyulun 1-dən şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü 600 manatdan 700 manata, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 500 manatdan 600 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manatdan 500 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manatdan 400 manata çatdırılır.

### 3 MİLYON İNSANI ƏHATƏ EDƏN SOSİAL İSLAHAT PAKETİ

Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdünün 2000 manatdan 2200 manata, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdünün 1800 manatdan 2000 manata, Prezidentin fərdi təqaüdünün 1500 manatdan 1700 manata, uşağın anadan olmasına görə və dəfn üçün birdəfəlik müavinətlərin 500 manatdan 600 manata çatdırılması təmin edilir. Himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinət 0-6 yaş arası uşaq üçün 395 manatdan 500 manata, 7-13 yaş arası uşaq üçün 415 manatdan 600 manata, 14-18 yaş arası uşaq üçün 435 manatdan 650 manata, əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 270 manatdan 300 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 220 manatdan 250 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 150 manatdan 180 manata çatdırılır. Yeni Fərmanda həmçinin ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün 300 manatdan 350 manata, ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdünün 200 manatdan 250 manata çatdırılması nəzərdə tutulub. Eyni zamanda övladlığa götürülən hər uşağa görə aylıq müavinət 200 manatdan 240 manata, ailə başçısını itirməyə görə aylıq müavinət (hər ailə üzvü üçün) 120 manatdan 140 manata, bir yaşınadək uşağı olan aztəminatlı (ünvanlı yardım alan) ailələrə aylıq müavinət (hər uşağa görə) 100 manatdan 140 manata, beşdən çox uşağı olan qadınlara aylıq müavinət (hər uşağa görə) 105 manatdan 140 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət (hər uşağa görə) 120 manatdan 140 manata, valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət 120 manatdan 140 manata çatdırılır.

### İLLİK ƏLAVƏ OLARAQ 1,4 MİLYARD MANAT AYRILIB

Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və əlilliyi olan uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü də gələn ayın əvvəlindən 100 manatdan 120 manata, ”Xalq” fəxri adına görə təqaüdün 200 manatdan 300 manata, ”Əməkdar” fəxri adına görə təqaüdün 150 manatdan 200 manata çatdırılır.

Ümumilikdə, bu ilin əvvəlindən icrasına başlanılan sosial islahat paketi 3 milyon insanı əhatə edir və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb.

Ölkəmizdə son 22 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən çox yüksək qarşılanır. Dövlət tərəfindən həyata keçirilən sosialyönlü tədbirlər nəticəsində, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbat və ehtiyacları yüksək səviyyədə ödənilib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Bu və ya digər amillər planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir.

Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir. Dövlət başçısının minimum aylıq əməkhaqqının artırılması haqqında sərəncamları və s. insan amilinə ayrılan diqqətin bariz nümunəsidir. Sosial sahə istiqamətindəki sərəncam və fərmanlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir. ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Son 22 ildə pensiyaçıların, təqaüdçülərin, əlillərin, şəhid ailələrinin və digər sosial kateqoriyaların sosial müdafiəsi ilə bağlı çoxlu sayda hüquqi aktların qüvvəyə minməsi bu sahədə ciddi dəyişikliyə səbəb olmuş oldu.

Göründüyü kimi, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı ölkədə sosial tərəqqi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasını təmin edib və bu uğurlar qarşıdakı dövrdə də davam edəcək.

”Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”. Ölkə Prezidentinin bu sözləri onun tapşırıqları əsasında ardıcıl olaraq həyata keçirilən, o cümlədən son illər bir-birinin ardınca reallaşdırılan, hər biri neçə-neçə vətəndaşın rifahının dəstəklənməsində önəmli rol oynayan sosial islahatlarda aydın və əməli təsdiqini tapır.

***Zümrüd BAYRAMOVA***

# İnsan hüquq və azadlıqlarının təmin olunduğu dövlət

## Prezident İlham Əliyev: "Sivil və hüquqi dövlət o dövlətdir ki, orada qanunun aliliyi var, cəmiyyətdə bütün ictimai-siyasi təsisatlar işləyir"

İnsan hüquq və azadlıqlarının müdafiəsi hər zaman Azərbaycan dövlətinin ən ümdə məqsədlərindən biridir. Ulu Öndər Heydər Əliyevin vətəndaş cəmiyyəti, vətəndaşların və insanların hüquqlarının qorunması uğrunda etdiyi çağırışlar və apardığı siyasət müstəqil Azərbaycanda müasir vətəndaş cəmiyyətinin formalaşmasını sürətləndirdi. Sovet totalitarizmindən çıxmış Azərbaycan vətəndaşların və insanların hüquqlarının qorunmasını təmin etməyə başladı. SSRİ-nin dağılması prosesində ən gərgin şəraitlərlə üzləşmiş Azərbaycanda vətəndaşların və insanların hüquqlarının qorunması stabil şəkil aldı. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarını ümumbəşəri yüksək dəyərlər kimi qiymətləndirərək, onların təmin edilməsini dövlətin ali məqsədi elan etmişdir. 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquqlarının və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarıb. Konstitusiyada əksini tapmış bu strateji məqsəd, ilk növbədə, hüquqi islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri edib. Humanist addımları ilə hər zaman dünya ölkələrinə nümunə olan





Azərbaycanda 1998-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq, ölüm cəzası ləğv edilib. Bu Konstitusiya ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuşdur. Azərbaycan Konstitusiyasının 12-ci maddəsində də göstərilir ki, insan hüquq və azadlıqlarının təminatı, eyni zamanda, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat şəraitinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu ali məqsədin təmini istiqamətində dövlət konkret addımlar atır.

### HÜQUQİ DÖVLƏT, VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞU

Bildiyimiz kimi, 18 İyun Azərbaycanda İnsan Hüquqları günüdür. Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən, hər il 18 iyun ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ”İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nı təsdiq edib. Ulu Öndər tərəfindən həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır. Ölkəmiz demokratik inkişaf yoluna Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-iqtisadi strategiya əsasında qədəm qoyub. Ulu Öndərin demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, həmçinin, dünya birliyinə fəal inteqrasiyanı müstəqil



Azərbaycanın əsas hədəflərindən biri kimi elan edib.

Ölkəmizdə insan hüquqlarının təminatı ilə bağlı güclü hüquqi baza formalaşdırılıb. Həyata keçirilən bütün tədbirlər ölkəmizdə hər bir vətəndaşın hüquqlarının müdafiəsinə yönəlib. Azərbaycanın uğurlu inkişafı ölkəmizdə insanların hüquq və azadlıqlarının müdafiəsi sahəsindədə əsaslı irəliləyişlərlə müşayiət olunur. Ulu Öndər tərəfindən imzalanan ”İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 1998-ci il 22 fevral tarixli Fərman və ”İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmiş və bu sahədə qanunvericilik və institusional islahatlara təkan vermişdir.

Ulu Öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Ölkə başçısı tərəfindən 2006-cı ildə qəbul edilmiş ”Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” və 2011-ci ildə qəbul edilmiş ”Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

### YENİ DÖVRÜN TƏLƏBLƏRİ

Azərbaycan demokratik dəyərlərin bərqərar olduğu müasir hüquqi dövlətdir. Azərbaycan Respublikasının İnsan Hüquqları haqqında beynəlxalq sazişlərə qoşulub və bu normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğu təmin edilib. Hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisidir. 2012-ci ilin dekabrında təsdiq olunmuş ”Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası da insan hüquqlarının səmərəli qorunması üçün yeni imkanlar açmış oldu.

2001-ci ildə Azərbaycan Respublikası ”İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasına qoşuldu. Son illər ölkəmizdə bütün sahələrdə həyata keçirilən əsaslı islahatlar insan hüquq və azadlıqlarının etibarlı şəkildə təmin olunması mexanizmlərinin daha da təkmilləşdirilməsini təmin edib. Xüsusilə, Azərbaycan Respublikasının 2017-ci il 10 fevral tarixli ”Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncamı, eləcə də bu sahədə imzalanan digər fərman və sərəncamlar ölkəmizdə insan hüquqlarının təmin olunması işinə mühüm təkan verib. Məhz bu sahədə əsaslı islahatların və proqram xarakterli fərman və sərəncamların imzalanmasının nəticəsidir ki, Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir.

Ölkəmizdə insan hüquqları sahəsində həyata keçirilən davamlı islahatlar fonunda yeni dövrün tələbləri və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər nəzərə alınmaqla ”Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanununda edilmiş son dəyişikliklərə əsasən Ombudsman ”Əlilliyi olan şəxslərin hüquqları haqqında” və ”Uşaq hüquqları haqqında” konvensiyaların həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının təşviqi və monitorinqi üzrə müstəqil mexanizm funksiyalarının həyata keçirilməsi səlahiyyətinə də malikdir. Bu çərçivədə qadınların, uşaqların və əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi, pozuntu hallarının qarşısının alınması məqsədilə zəruri addımlar atılır.

### ”CƏMİYYƏT DEMOKRATİK PRİNSİPLƏR ƏSASINDA QURULUR”

Bu gün Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq normalarına cavab verən geniş hüquqi baza mövcuddur. Bu hüquqların həyata keçirilməsi ilə bağlı konkret hüquq müdafiə mexanizmləri fəaliyyət göstərir. İnsan hüquq və azadlıqlarının təmin olunması istiqamətində tədbirlərin həyata keçirilməsi ilə bağlı dövlətin siyasi iradəsi mövcuddur. Bu istiqamətdə davamlı olaraq islahatlar həyata keçirilir. Həmin islahatlar nəticəsində qanunvericilik təkmilləşdirilərək müvafiq beynəlxalq sənədlərə uyğunlaşdırılır, əhalinin hüquq və azadlıqları daha yüksək səviyyədə təmin olunur. ”Mənim aləmimdə, sivil və hüquqi dövlət o dövlətdir ki, orada qanunun aliliyi var, cəmiyyətdə bütün ictimai-siyasi təsisatlar işləyir, cəmiyyət demokratik prinsiplər əsasında qurulur, söz, vicdan azadlığı var, dinindən, milliyyətindən asılı olmayaraq insanlar eyni hüquqlara malikdirlər, azad yaşayırlar. Mənim aləmimdə, bunlar sivil və hüquqi dövləti müəyyən edən əsas amillərdir”, - deyə Prezident İlham Əliyev bildirib. Azərbaycanda da belə bir dövlətin qurulması istiqamətində dövlət başçısının rəhbərliyi ilə çox işlər görülüb və davamlı tədbirlər, islahatlar reallaşıb.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti Fəxri Xiyabanı ziyarət edib









17 iyun 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov, rəis müavinləri t.ü.f.d. İsmayıl Əfəndiyev, Şahlar Mirqasım, Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkim Bəxtiyar Musayev və əməkdaşlar Tibb İşçilərinin Peşə Bayramı Günü Fəxri Xiyabana gələrək, Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, dahi şəxsiyyətin məzarı önünə tər çiçəklər düzüb və Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər. Sonra Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyub. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin də məzarları üzərinə gül dəstələri düzüblər.

# "Müstəqil Azərbaycan dövləti mövcud olduqca, mətbuata dövlətin dəstəyi davam edəcək"

**"Azərbaycanda mətbuatın 150 illik tarixi bir neçə inkişaf mərhələsini əhatə edir ki, bu mərhələlər həm keyfiyyət, həm də kəmiyyət baxımından bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Xüsusilə, müstəqillik əldə edildikdən sonra və xüsusilə son 20 ildə Azərbaycan mətbuatı yeni inkişaf xüsusiyyətləri ilə seçilməyə başlamışdır. Bu dövrün ən xarakterik cəhətlərindən biri mətbuata dövlət dəstəyinin institutlaşması olmuşdur". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, "Bakı-Xəbər" qəzetinin baş redaktoru, jurnalist, politoloq və siyasətçi Aydın Quliyev deyib.**







Onun sözlərinə görə, mətbuat sahəsində dövlət siyasətini həyata keçirən xüsusi dövlət orqanı yaradılmışdır: "Bu orqan mətbuat subyektlərinə metodiki, iqtisadi və maliyyə yardımı göstərməklə onların fəaliyyətinə sistemli dəstək verməkdədir. Mətbuatın dövlət tərəfindən himayə olunması onun davamlı inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə, kadr potensialının artırılmasına və informasiya təhlükəsizliyinin təmininə yönəlmiş kompleks tədbirlər sistemi kimi çıxış edir.

İlkin mərhələlərdə bu institutun yaradılması ilə bağlı bəzi narahatlıqlar və tənqidi yanaşmalar mövcud olsa da, zaman keçdikcə bu modelin effektivliyi və məqsədəuyğunluğu özünü göstərmişdir. Bu gün aydın şəkildə müşahidə olunur ki, mətbuata dövlət dəstəyinin institusional formatda təşkili medianın sabit və təhlükəsiz fəaliyyətinə şərait yaradan mühüm mexanizmdir.

Bundan sonra da Azərbaycanda, xüsusilə yazılı mətbuatın dövlət himayəsi altında fəaliyyət göstərməsinə ciddi ehtiyacın olduğu məsələsinə həssaslıqla yanaşılacağı şübhəsizdir. Bu, yalnız dövlətin deyil, bütövlükdə cəmiyyətin gözləntiləri sırasındadır. Çünki, 150 illik inkişaf tarixi boyunca Azərbaycan mətbuatının əldə etdiyi ən böyük nailiyyətlərdən biri onun özünü qoruyub saxlaması, dəyişən ictimai-siyasi şərtlər daxilində varlığını davam etdirməsi olmuşdur.

Zamanla mətbuatın üzərində yeni media seqmentləri - televiziya, radio, onlayn informasiya portalları, sosial media platformaları və digər kütləvi informasiya vasitələri formalaşmışdır. Lakin bu seqmentlərin əksəriyyəti məhz yazılı mətbuatın tarixi təcrübəsi və formalaşdırdığı ənənələr üzərində inkişaf etmişdir".

Siyasətçi həmçinin bildirib ki, Azərbaycan mətbuatının 150 illik tarixində başqa bir mühüm nailiyyət də onun milli-mənəvi dəyərlər sisteminə söykənərək fəaliyyət göstərməsidir: "Mətbuat, yalnız informasiya ötürücüsü deyil, eyni zamanda milli mənəvi dəyərləri, vətənpərvərlik ruhunu, dövlətçilik ideyalarını və ümumilikdə azərbaycançılıq ideologiyasını yaşadan və yayan mühüm ictimai institutlardan birinə çevrilmişdir.

Beləliklə, mətbuatın dövlət tərəfindən dəstəklənməsi və bu dəstəyin ilk dəfə müstəqil Azərbaycan dövründə institusional xarakter alması, ölkənin informasiya məkanında strateji nailiyyət kimi dəyərləndirilməlidir. Bu, mətbuatın davamlılığına, peşəkarlığının yüksəldilməsinə və onun ictimai funksiyalarının yerinə yetirilməsində mühüm rol oynamışdır.

Azərbaycan mətbuatının 150 illik tarixinin böyük bir dövrü onun dövlət himayəsindən kənarda fəaliyyət göstərdiyi mərhələni əhatə edir. Lakin müstəqillik dövrü, xüsusilə də 1993-cü ildən bu günədək olan mərhələ Azərbaycan mətbuatının dövlət himayəsi altında inkişaf etdiyi dövr kimi səciyyələnir. Bu, olduqca böyük bir nailiyyətdir. Yəqin ki, müstəqil Azərbaycan dövləti mövcud olduqca, mətbuata dövlətin dəstəyi də bir institut kimi mövcudluğunu davam etdirəcəkdir".

***Xeyrənsə Piriyeva***

# Qadın sağlamdırsa, cəmiyyət sağdır

***Qadınların sağlamlığı tək fərd üçün deyil, bütün cəmiyyət üçün əhəmiyyətlidir, çünki qadın sağlamlığı cəmiyyətin sağlamlığının əsasını təşkil edir. Çünki qadınlar ailələrin və cəmiyyətin təməl daşlarıdır, dolayısı ilə onun sağlamlığı cəmiyyətin sağlamlığı deməkdir. Reproduktiv sağlamlıq, hamiləlik, doğum, analıq kimi vacib məsuliyyətlər qadınlara xasdır və bu proseslərin sağlam idarə olunması birbaşa qadınların həyat keyfiyyətinə, habelə cəmiyyətə təsir göstərir. Bundan əlavə, qadınların psixi sağlamlığı, sosial və iqtisadi vəziyyətləri də onların ümumi sağlamlığına təsir edən amillərdir. Ona görə də qadınların sağlamlığının qorunması və inkişafı təkcə qadınların deyil, bütün cəmiyyətin rifahı üçün vacibdir.***



Bu gün dünyada qadınların sağlamlıqlarını təhlükəyə atan ən təhlükəli xəstəliklərdən biri xərçəngdir. Son məlumatalara görə, hazırda dünyada 10 milyondan çox qadın xərçəngdən əziyyət çəkir. Azərbaycanda da bu sahədə vəziyyət ürəkaçan deyil. Məsələn, 2023-cü ildə 40 yaşdan yuxarı hər 1000 qadından 3-4 nəfərinə süd vəzi və ya uşaqlıq boynu xərçəngi diaqnozu qoyulub. Hər il ölkəmizdə 5-6 min qadında müxtəlif xərçəng növləri aşkarlanır.





Aparılan araşdırmalar zamanı uzun boylu qadınların xərçəngə yaxalanma riskinin daha yüksək olması barədə nəticələr əldə edilir. Bunu bir müddət öncə Amerikanın Albert Enşteyn Tibb Colleci də sübut etdi. Araşdırmanın nəticəsinə görə, hər 10 sm uca boy qadınların süd vəzi, yumurtalıq, böyrək, dəri xərçəngi kimi xəstəliklərə yaxalanma riskini 13 faiz artırır. Bundan öncə də İngiltərənin Oksford Universitetində aparılan araşdırmalar 1,52 sm-dən uzun insanlarda hər 10 smə görə xərçəng riskinin 16 faiz artdığını müəyyən etmişdilər.

Ümumiyyətlə, dünyanın bir çox araşdırma mərkəzi iddia edir ki, qadınların boy ölçüsü ilə yumurtalıq xərçəngi arasında əlaqə var. Aparılan araşdırmalar nəticəsində uzunboylu qadınların bəstəboylara nisbətən yumurtalıq xərçənginə tutulma riskinin böyük olduğunu da təsdiqləyir.

Araşdırma müddətində 14 ölkədən 25 min yumurtalıq xərçəngi xəstəsi və 80 min sağlam qadın müayinə edilib və uzun boyun bu xəstəliyə yoluxmaq üçün tutarlı bir səbəb olduğu müəyyən edilib. Alimlər deyir ki, qısa və bəstəboylu qadınların yumurtalıq xərçənginə yoluxma riski 1000 nəfərdə 16-dırsa uzunboylu qadınlarda bu rəqəm hər min nəfərə 20 risk təşkil edir.

Ümumiyyətlə, qadınların uca boyundan başqa, artıq çəkili olması da xərçəngə yoluxma səbəblərindən biridir. Araşdırmalara görə, qadınlarda xərçəngi artıq çəki, kişilərdə isə stress və tütün yaradır. Mütəxəssislər hər 500 qram artıq çəkinin xərçəng riskini 6% artırdığını iddia edirlər. Böyük çəkidə doğulmuş və ya həyatının gələcək illərində artıq çəkiyə sahiblənmiş qadınların kişilərə nisbətən daha çox xərçəngə yoluxma riski var.

Çəkisi dörd kiloqramdan artıq olan körpələr 3-3,5 kq olan körpələrdən 16% çox xərçəng riski daşıyır. Qadınların artıq çəkisi süd vəzilərində və uşaqlıq yolunda xərçəngə səbəb olur. Artıq çəki ilə bərabər artan qadınlıq hormonu uşaqlıq yolu xərçənginin birinci səbəbidir.



Xərçəng çoxalan hüceyrələr xəstəliyidir, bir orqanda nə qədər sürətli və çox böyümə varsa xərçəng riski də bir o qədər yüksəkdir. Normal halda hüceyrələr orqanda yenilənmə məqsədi ilə çoxalmalıdır. Amma hər hüceyrənin də bir ömrü var, ölən hüceyrənin yerinə yenisi yaranır. Bəzən bu hüceyrələr orqanizmin nəzarətindən çıxır və sürətli şəkildə çoxalır. Bu çoxalma o qədər sürətlidir ki, ölən hüceyrələr bu sürətə yetişə bilmir və beləliklə xərçəngin təməli qoyulur.

Orqanizm bir çox hallarda bu hüceyrələri nəzarəti altına ala bilmir, amma mümkün qədər nizamlamağa çalışır. Əgər orqanizmimiz nizamı qorumağa çalışmasa bu gün dünyada xərçəngdən ölənlərin sayı fəlakət həddə çatardı.

Endokrinoloq Sahib Məmmədov deyir ki, qadınlarda döş, uşaqlıq, yumurtalıq xərçənginə ona görə çox rast gəlinir ki, onların orqanizmi xərçəng üçün münbit zonadır: "Qadınlıq orqanları xərçəngin yaranması və inkişafı üçün olduqca əlverişli yerlərdir. Uşaqlığın iç təbəqəsi olan "endometrium" qadın bədəninin ən hərəkətli zonasıdır və 1 sm qalınlığındadır, elə buna görə burada xərçəng üçün münbit şərait yaranıb. Yumurtalıq xərçənginin yaranma səbəbi isə bu orqanda da hüceyrələrin hərəkətli olmasıdır".

Həkim deyir ki, həm hüceyrə yenilənməsi, həm də yumurtalığın özünün tez-tez yenilənməsi səbəbindən bu orqanın xərçəngə yoluxması halları digər xərçəng növlərindən daha çox rastlanır. Heç vaxt uşaq doğmayan, və ya gec doğan, eləcə də teztez abort etdirən qadınlarda yumurtalıq xərçəngi çox rastlanır.

2022-ci ilin statistikasına görə, Azərbaycanda xərçəng xəstəsi kimi qeydiyyatda olan şəxslərin sayı 59 min nəfər olub. Məlumata görə, ölkəmizdə vəfat edən hər 9 nəfərdən təxminən 1-i xərçəngdən ölür. Ölümə səbəb olan xərçəngin növünə gəlincə, süd vəzisi 2638 , traxeya, bronx, ağciyər 1379, mədə 1372, bağırsaq 701, qida borusu isə 486 təşkil edib.

Süd vəzi xərçəngi - dünyada yayılmış ən geniş xərçəng növüdür. Hər il dünyada 400000 qadına bu diaqnoz qoyulur. Bu 29 saniyəyə bir qadının xəstə olması deməkdir. Ümumilikdə hər 8 qadından birində xərçəngin bu növünə rast gəlinir. Dünyada 40 yaşdan aşağı qadınlarda bu xəstəliyə görə 1-ci yeri Türkiyə tutur. 40 yaşdan aşağı qadınlarda SVX diaqnozu saya görə dünyada birinci yerdədir. Azərbaycanda hər 8 qadından biri süd vəzi xərçəngindən əziyyət çəkir və bu rəqəm ilbeil artmaqdadır. Üstəlik də, bu xəstəlik artıq çox gəncləşib. Bir çox qadının mammoqrafiya etdirmədiyini nəzərə alsaq bu rəqəmin çox olduğunu ehtimal etmək olar.

Qeyd edək ki, xərçəng xəstələri daha çox Bakıda yaşayır. Bunun da əsas səbəbi paytaxtda əhalinin sıxlığı və ekoloji durumun pis olmasıdır. Radiasiya faktoru da xərçəngin yayılmasında mühüm rol oynayır. Xüsusilə akasiya ağaclarının kütləvi qırılmasının xərçəng xəstəliyinin artamasına təkan verdiyi barədə tutarlı araşdırmalar var. Bu araşdırmalara görə bir akasiya ağacı 40 kvadratmetr ərazini radiasiyadan təmizləyir.

Qadınların süd vəzisi xərçənginə yoluxmasının səbəbinə gəlincə isə, bu süd vəzilərinin tez-tez hormon dəyilikliyinə uğraması ilə əlaqədardır. 40 yaşını keçən hər yüz qadından 2-si süd vəzisi xərçənginə yoluxur. Erkən diaqnozu qoyulan xəstəliyin sağalma şansı 95 faizdir.

Yumurtalıq xərçəngi qadınlarda xərçəngdən ölmə səbəbi arasında 5-ci sıradadır. İlk sıralarda ağciyər, döş, bağırsaq və mədəaltı vəz (pankreas) xərçəngləri qərarlaşıb. Maraqlıdır ki, tez-tez rastlanan xərçəng növləri daha az ölümə səbəb olduğu halda nadir rastlanan xərçənglər bir anda öldürə bilir. 40 yaşdan yuxarı qadınların ölümünün 2 faizinə yumurtalıq xərçəngi səbəb olur. Bu xərçəng növü ən çox 50-60 yaşlarda rastlanır və ən çətin diaqnoz qoyulan növdür.

Xərçəng xəstəliyinin qadınlarda özünü göstərən növləri əsasən yumurtalıq, süd vəzisi və uşaqlıq boynu xərçəngidir. Erkən diaqnozun müalicədə böyük paya malik olduğunu bilmək önəmlidir.

Xərçəng xəstəliyi təhlükəlidir, nə elm, nə texnologiya onu kökündən məhv edə bilmir. İnkişaf etmiş xəstəlik üçün ediləcək çox az müalicə növü var. Amma erkən diaqnoz qoyulmuş xəstələrin sağalma ehtimalı yüksəkdir. Qadınların xərçəngə yoluxmasının qarşısını alacaq yeganə insan elə qadın özüdür.

Xərçəngdən qorunmaq istəyən qadının ən effektiv silahı isə vaxtaşırı həkim müayinəsindən keçməkdir. Xərçəng başlanğıcda çox yavaş irəliləyən xəstəlikdir, bu səbəbdən də diaqnozu çətindir. Qadının 6 aydan bir keçəcəyi həkim müayinəsi bu diaqnozu vaxtında qoya bilər.

Xərçəngi yaradan faktorların başında stres gəlir, stresi həyatınızdan uzaq tutun. Natural qidalanın, fast-food qidalanmadan uzaq durum. İdman edin, gəzintiyə çıxın, real sosial həyat yaşayın, doslarla, qohumlarla sıx ünsiyyət qurun. Doğuşdan sonra körpənizi əmizdirin, görkəmim pozular deyə südü süni yollarla kəsməyə çalışmayın, körpəsinə süd verən qadınlarda xərçəng nadir rastlanır.

Limon, mandarin, nar xərçəngin düşmənidir, bol-bol istifadə edin. Göbələk xərçəng hüceyrələrini məhv edir. Yerkökü döş, uşaqlıq xərçəngi ilə müabirizədə güclüdür. Pomidor xərçəng hüceyrələrini azaldır. Ümumiyyətlə, bütün qırmızı meyvə və tərəvəzlər xərçəng xəstəliyi ilə mübarizə gücünə malikdir. Kələm, yaşıl çay, brokoli, gül kələmi, qatıq, ananası çox istifadə edin. Xərçənglə ona yoluxmamışdan öncə mübarizə aparın.

***Lalə Mehralı***

# Müharibəsiz dünya quraq...

***Müharibə** Bu, cəmi səkkiz hərfin birləşməsindən yaranan sadə bir söz deyil, səslənməsi ilə özündə dağıntıları, qırğınları, qanı, göz yaşını, ata-ana, övlad, nişanlı, sevgili itkisini, nisgili, kədəri ehtiva edən bir məfhumdur. Müharibənin ağırlığını onu yaşayanlar bilər. Gecənin qaranlığında yuxusunu bombardman səsləri pozanlar, bir anın içində evsiz-eşiksiz qalanlar bilər. Bu gün müharibənin acılarını yaşayan Rusiya, Ukrayna, Fələstin, İsrail, İran xalqı bilər. 5 il öncə biz bildiyimiz kimi...*

Müharibənin Vətəni yoxdur. O, harada baş verirsə, fərqli bir cəhəti olmur, eynilik təşkil edir. Bu səbəbdən də müharibənin nə olduğunu balasını müharibəyə göndərib yuxusu ərşə qalxanlar, sağ-salamat yola saldığı övladını şəhid kimi qoynuna alanlar bilər, ömrünün sonunadək qara yaylıq bağlayıb, gözləri yollarda balasını axtaran, yuxuları tək övladı olan analar bilər. Müharibənin nə olduğunu qəm-qüssədən üzündə qırış cığırları açılan, kədərdən beli bükülən atalar bilər. Atasından doymayan, ata adı gələndə gözləri qapılara dikilən, həsədi yalnız atalı yaşıdları olan uşaqlar bilər. Müharibənin nə olduğunu sevdiyi insanın nişanəsini onsuz dünyaya gətirən qadınlar bilər. Övladına müharibədə şəhid olan sevdiyinin adını verib onu hər çağırdığında ürəyi nisgildən şırımlanan analar bilər. Toy hazırlığı sevincini müharibənin əlindən aldığı, nişanlısını davaya yola salıb, onu şəhid kimi qarşılayaraq qara torpaqla paylaşan qızlar bilər. Toyundan cəmi bir-iki il ötən, bir üzü qız, bir üzü gəlin olanlar bilər.





## Müharibəyə məruz qalan xalq kimi...

Biz azərbaycanlılar keçmiş SSRİ, sonrakı MDB ölkələri arasında ən çox müharibəyə məruz qalan xalqıq. Qonşuluqdan kənar qonşumuzun başımıza açdığı bəlalar bütün dünyaya məlumdur. Dünya xalqlarından bizə qarşı törədilənləri pisləyənlər arasında illərdir ki, susanlar da olsa, lakin həqiqətin kimin tərəfində olduğunu çox gözəl bilirlər. Əsrlər boyu bu xalqa qarşı törədilən soyqırımları, haqsız, ədalətsiz müharibələri hələ demirəm. Tək son 30 ilə təsadüf edən müharibələr bizə yaxın tarix olduğu və gözlərimiz qarşısında acınacaqlı mənzərələri canlandırdığı üçün onlardan danışmaq istəyirəm.





Ermənilər tərəfindən 1988-ci ildən başlayaraq torpaqlarımıza qarşı irəli sürülən iddialar Birinci Qarabağ müharibəsinin dəhşətini yaşatdı xalqımıza. Torpaqlarımız bir-birinin ardınca işğal olundu. İllərlə ev tikib, yurd salan soydaşlarımız doğma torpaqlarından didərgin salındılar. Öz ata-baba ocağından zorla çıxarılanlar Azərbaycanın dörd bir yanına səpələndi. Onlar yurdlarını qoyub gəlmişdilər, nə əvəz edərdi yurdlarını onlara? Dədə-baba torpaqlarını, məzarlıqlarda əzizlərini qoyub gəlmişdilər, nə bu nisgilə su çiləyə bilərdi? Bar üstündə bağlarını, ruzi-bərəkətli torpaqlarını, evlərini qoyub gəlmişdilər, nə qarşılayardı bu acını? Onlar hara, hansı şəraitə gəlmişdilər? Azərbaycanın bugünkü gününə gəlməmişdilər, xeyr. Dövlətinin başında millətini əsla düşünməyən rəhbərlərin idarə etdikləri, iqtisadiyyatı tənəzzülə uğrayan, yoxsullaşmış vəziyyətdə olan ölkəmizə səpələnmişdilər. Nədən söhbət açım? İlk əvvəllər soydaşlarımızın yaşadığı evlərdənmi, oradakı şəraitin hansı vəziyyətdə olmasındanmı? Xanimanını qoyub çadır şəhərciklərdə ömrünün illərinin üstünə il gətirməklərindənmi?

Ümummilli Liderimizin, daha sonra isə dövlətimizin başçısı Cənab İlham Əliyevin rəhbərliyi dövründə müstəqil ölkəmizin inkişafı ilə bərabər, bütün səylər qaçqın-köçkünlərin rifahına yönəldi, çadır şəhərçikləri tamamilə ləğv olundu, hər bir qaçqın mənzillə təmin olundu. Onların məşğulluğu diqqətdə saxlanıldı. Bütün problemləri vaxtında həll olundu. Ən başlıcası isə onların bir gün öz ata-baba yurdlarına qayıtmaları gündəmdə daim birinci məsələ oldu və bunun üçün əsaslı tədbirlər həyata keçirilməyə başlandı.

Axı dərd təkcə haradasa bir mənzildə yaşamaq, hərtərəfli təminat deyildi. Yuxarıda vurğuladığım müharibənin acılarını yaşamışdı bu insanlar. Tək onlar yox, bütün xalqımız. Minlərlə itkimiz vardı. Son qanınadək torpaqların müdafiəsində dayanan oğullarımız şəhid olmuşdular. Gəl, bir tərəfdən bu acıya döz, digər tərəfdənsə qoyub çıxdığın el-oba dərdinə. Gəl, Laçınsız, Kəlbəcərsiz, Zəngilansız, Şuşasız, Qubadlısız, Ağdamsız yaşa, görüm, necə yaşayırsan. Gəl, müharibənin əlindən aldığı bu torpaqların haylı-haraylı, toylu-büsatlı günlərini unut, görüm, necə unudursan. Doğmaların uyuyan o qəbirləri düşmənin əlində qoy, rahat yaşa, görüm, necə yaşayırsan? Gəl, həm canından qoparılan yurdunun, həm də minlərlə şəhidinin nisgilini bircə dəqiqə unut, görüm, necə unudursan

## Biz sülh istəyirik...

Düz 30 il, bu, az vaxt deyildi. Zamanın bir qərinəyə yaxın kəsiyi idi. Qaçqın-köçkünlərimiz nə qədər hərtərəfli qayğı ilə əhatə olunsalar da, axı onların canları o torpaqlarda idi. Nə vaxtsa yurdlarına qayıtmaq bu insanların tək arzusu idi. Müharibə istəmirdilər, yenidən fəlakət, qan görmək, şəhid qarşılamaq istəmirdilər. Lakin ocaqlarına yenidən qayıtmaqdan başqa istəkləri də yox idi. Bəs bu necə ola bilərdi? Məsələnin sülh yolu ilə həll olunması üçün istər Ümummilli Liderimiz Heydər Əliyev, istərsə də hər zaman "Biz sülh istəyirik, müharibə istəmirik",- deyən dövlətimizin başçısı uzun illər dünyaya çağırış etdi. Qarabağ məsələsinin dinc yolla həll olunması üçün illərlə beynəlxalq təşkilatlarla danışıqlar apardılar. Lakin danışıqlar heç bir nəticə vermədi. Çünki dünya ədalətsizlərdən xali deyil. Bəs Qarabağ düşmən əlində qala bilməzdi axı. Elə bu barədə Ulu Öndər deyirdi: "Təbiidir ki, biz Azərbaycanın suverenliyini bərpa edəcəyik. Torpaqlarımızın, ərazimizin bütövlüyünü bərpa edəcəyik. Amma hələlik, biz bunu sülh yolu ilə, beynəlxalq təşkilatların, ATƏT-in Minsk Qrupunun iştirakı ilə, onların köməyi ilə etmək istəyirik. Doğrudur, neçə illərdir ki, bu proses davam edir, danışıqlar gedir. Bu danışıqların əksəriyyəti mənim tərəfimdən aparılır. Mənim ətrafımda bu işlə məşğul olan vəzifəli şəxslər tərəfindən aparılır. Nəticə yoxdur. Amma bu, o demək deyildir ki, sülh danışıqlarının potensialı tükənibdir. Yox! Hələ var. Ona görə də biz yenidən müharibəyə başlamaq istəmirik. Biz istəmirik qan tökək. Başa düşürsünüzmü? Əgər bir şeyi sülh yolu ilə etmək olarsa, bir az da dözək, amma sülh yolu ilə həll edək. Ancaq həll edə bilməsək, təbiidir ki, biz torpaqlarımızı erməni işğalçılarının tapdağı altında qoya bilmərik. Biz onları mütləq azad edəcəyik. Nəyin bahasına olursa-olsun, hansı qüvvə ilə olursa-olsun, biz onları azad edəcəyik. Bunun üçün biz xalqımızın, vətəndaşlarımızın vətənpərvərlik hisslərini daha da gücləndirməliyik, artırmalıyıq".

## İkinci Qarabağ müharibəsi qaçılmaz idi

Lakin beynəlxalq təşkilatlar susdu. Ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliyə, başladığı müharibəyə, tökdüyü qanlara, minlərlə itkilərimizə, dağıdılan, yandırılan yurdlarımıza göz yumdu. İnsan haqlarına əhəmiyyət vermədi, insan amilinə saygı duymadı. Biz müharibə istəmirdik. Lakin dövlətimizin başçısının da qeyd etdiyi kimi: "Deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi qaçılmaz idi. Bunu hər kəs bilirdi. Azərbaycan ictimaiyyəti də bilirdi, beynəlxalq vasitəçilər də bilirdi, biz də bilirdik. Sadəcə olaraq, ümidlər var idi ki, Ermənistan rəhbərliyində heç olmasa özünüqoruma instinkti özünü büruzə versin və onlar öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar. Əgər bu olsaydı, müharibəyə ehtiyac qalmazdı. Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil ".

Bəli, biz İkinci Qarabağ müharibəsini də yaşamalı olduq. 2020-ci il sentyabr ayının 27-dən başlayaraq 44 gün Qarabağda qanlı-qadalı müharibə getdi. Yenə müharibəyə xas əlamətlər: fəlakətlər, dağıntılar, ölümlər, dinc əhalinin gözlənilməyən anda itkisi, hər gün cəbhədən gələn qara xəbərlər, hər gün yüzlərlə şəhid, qan qoxusu, göz yaşları, nalə, fəryad səsləri

Bax, budur müharibə. İstəmirdik, amma məcburduq. Bizi orada torpaqlarımız gözləyirdi, namusumuz, qeyrətimiz, mənəviyyatımız olan torpaqlarımız. Zəfər bizim oldu. Minlərlə şəhid versək də, minlərlə qazilərimiz olsa da, minlərlə dinc sakinimiz xəsarət alsa da, evləri dağılsa da, zəfər çaldıq. Çünki bu, haqq savaşı, haqq etdiyimiz zəfər idi.

Qayıtdıq Qarabağa, 30 il sonra qayıtdıq. Övladlarımız kimi şəhid Qarabağa qayıtdıq. 30 ildə dağıdılan, daşı daş üstə olmayan yurda qayıtdıq. Müharibənin fəlakətləri bax, budur. İzlədik, üzüldük Hanı o tarixi abidələrimiz, qədim məscid, pirlərimiz, məktəblərimiz, xəstəxanalarımız Hanı o mərtəbəli evlərimiz, həyətlərimiz. Yolları itib, çığırları ot basıb. Heç tapmadıq əzizlərimizin qəbrlərini. Dağıdılıb hamısı. "Hanı, hanı, bəs o hanı?",- deyə-deyə çox dolandıq yurdumuzu. Amma suallarımız cavabsız qaldı. Çünki bu yurd iki dəfə müharibədən çıxmışdı. Tale yazımız olmuşdu erməni ilə qonşu olmaq.

## Müharibə itkidir: həm haqlı, həm haqsız tərəf üçün

Lakin ən dəhşətlisi budur ki, müharibə hər iki tərəfin itkisidir, həm haqlının, həm haqsızın. Dünyanın harasında olursa olsun, o yerdə ki, müharibə vardır, orada nalə, imdad səsləri, uşaq çığırtıları, hər gün insan ölümü, hər gün dağıntı vardır. Bu gün rusiyalı, ukraynalı, fələstinli, israilli, iranlı uşaq, gənc, qadın, kişilərin faciəsini əks etdirən mənzərələrlə qarşılaşarkən adamın ürəyi parça-parça olur.

Ana dünyanın hər yerində ana, bala hər yerində göz nuru, ürək parasıdır. Yurd dünyanın hər yerində candan əziz, ocaq dünyanın hər yerində ondan uzaqda olana təşnədir. Bomba səsi bütün insanlar üçün fəlakətdir. Dağıntılar hər bir ölkə üçün iqtisadi tənəzzüldür. Müharibə məfhumu bütün dünya xalqları üçün fəlakətlər toplusudur. Belə isə müharibələrin dəhşəti ruhuna hopmuş bir azərbaycanlı olaraq demək istəyirəm ki, kaş müharibəsiz bir dünya qura biləк

***Mətanət Məmmədova***

# Avtonom avtomobillər: insansız gələcəyə doğru

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*








***Avtonom avtomobillər barədə son vaxtlar çox danışılır, üstünlükləri və çatışmazlıqları barədə müzakirələr aparılır. Bu, özü özünü idarə edən, sürücü olmadan mənzil başına çatan və ya çatdıran avtomobillərdir. Robototaksi də adlandırılan avtonom avtomobillər qiymət baxımından hamı üçün əlçatan deyil, hətta inkişaf etmiş ölkələrdəki maaş və gəlirlə robototaksi qiymətləri adekvat deyil.***

"OBI Mobility" tətbiqi, qiymətləri müqayisə edərək, bu ilin 25 martından 25 aprelinədək San-Fransiskoda Waymo, UberX və Lyft-in qiymət strategiyalarını araşdırıb. Sorğuda iştirak edənlərin 70 faizi sürücüsüz avtomobillərə üstünlük verdiyini, onların təhlükəsiz və rahat olduğunu düşünür. Toplanan 90.000 informasiya təhlil edilib və nəticələr təəccüb doğurub. Lyft-in orta gediş qiyməti 14,44 dollar, Uber 15,58 dollar, Waymo-nun orta qiyməti isə 20,43 dollar olaraq qiymətləndirilib.

"Uber"in nə olduğu bizə məlumdur, ölkəmizdə də xidmət göstərir. "Lyft" ABŞ-da fəaliyyət göstərən mobil tətbiq əsaslı taksi və nəqliyyat xidmətləri platformasıdır. "Uber" kimi "Lyft" də istifadəçilərə öz smartfonları vasitəsilə sürücü çağırmaq imkanı yaradır. "Waymo" isə sürücüsüz avtomobil texnologiyası şirkətidir. "Waymo" adı "a new way forward in mobility" (hərəkətdə yeni yol) ifadəsindən yaranıb.

Texnologiya sahəsində ixtisaslaşmış məşhur Amerika onlayn xəbər saytı və media platforması olan "TechCrunch" bildirir ki, "Waymo"nun yüksək qiymətlərinə baxmayaraq ona olan istifadəçi marağı azalmayıb. Şirkət may ayında həftədə 250.000 ödənişli səfər etdiyini açıqladı. "Obi"nin gəlirlər üzrə baş direktoru Aşvini Anburajan bu vəziyyəti belə şərh edir: "İdeya o idi ki, avtonom nəqliyyat vasitələri normal sürücülərin işini əlindən alacaq. Amma məsələ ondadır ki, bu avtomobillərin istismarı çox bahadır və gözlənilən transformasiya düşündüyümüz qədər tez baş verməyəcək."

Qeyd edək ki, San-Fransiskoda xüsusilə pik saatlarda "Waymo"nun tarifləri Lyft-dən orta hesabla 11 dollar, "Uber"dən isə 9,50 dollar bahadır. Görünür ki, istifadəçilər bu qiymət fərqini ödəməyə hazırdırlar. Aşvini Anburacan bunu bir cümlə ilə izah edir: "Yeni texnologiyaya olan maraq, həyəcan və avtomobildə tək olmaq istəyi aradakı qiymət fərqini kölgədə qoyur".

Qeyd edək ki, "Waymo" tam avtonom, süni intellektlə idarə olunan avtomobillər hazırlayır. Şirkətin əsas hədəfi sürücüsüz taksi xidmətləri, yol təhlükəsizliyinin artırılması, avtomobil idarəsində insan səhvlərinin aradan qaldırılmasıdır. "Waymo One" ABŞ-da fəaliyyət göstərən ilk tam avtonom taksi xidmətidir. Hazırda Arizona ştatının Finiks şəhərində ictimai istifadədədir. "Waymo Via" yükdaşıma üçün avtonom kamaz və fur sistemləri hazırlayır və logistika sahəsində tətbiq olunur. Lidar və sensor texnologiyası ilə "Waymo" öz radar və kameralarını istehsal edərək yüksək dəqiqlikli xəritələr və sensorlu idarəetmə təmin edir.

"Waymo" avtomobillərində kamera, lidar (360 dərəcə ətrafı skan edir), radar, süni intellekt sistemi vasitəsilə maşın real vaxtda mühitə uyğun dönmə, dayanma, sürətlənmə və s. qərarları verir. "Waymo" hesab edir ki, yol qəzalarının 90%-ni təşkil edən insan səhvlərini aradan qaldırmaqda avtonom avtomobillər idealdır. Şirkət nəqliyyatı daha əldəçatan, sürətli və təhlükəsiz etməyi hədəfləyir. Avtonom avtomobillər avtomobil texnologiyasının gələcəyini formalaşdıran əsas oyunçulardan biri hesab olunur.



Ümumiyyətlə, bu gün dünyanın qabaqcıl ölkələri avtonom avtomobillərlə bağlı xeyli yol qət ediblər. İstifadəyə verən də var, avtonom avtomobil texnologiyası üzərində işləyən də. Onların bəziləri nəhəng texnologiya və avtomobil koorporasiyalarına məxsusdur, digərləri isə müstəqil startaplardır.

"Waymo" lidar və süni intellektlə ən təhlükəsiz və sabit sistemlərdən biri hesab edilir, ictimai istifadə üçün hazırdır. Alphabetin (Google) məhsulu olan və 4-cü səviyyə hesab edilən bu avtomobillər Phoenix, San Francisco, Los Angelesdə avtonom taksi, yükdaşıma (Waymo One, Waymo Via) kimi xidmətlər göstərir.

CEO-su Elon Musk olan "Tesla"nın səviyyəsi 2 olaraq qiymətləndirilir, unikal cəhəti odur ki, lidar yerinə yalnız kamera və AI istifadə edir. Yəni "Tesla" yalnız kameraya əsaslanır, hələ tam avtonom deyil. Fəaliyyət sistemi kamera əsaslı autopilot, FSD sistemidir.

"General Motors"un 4-cü səviyyə hesab edilən "Cruise" şəhər daxilində tam sürücüsüz testlər edir, amma bəzi qəzaları da baş verib. Fəaliyyət istiqaməti əsasən robotaksi, şəhərdaxili testlərdir. Xüsusiyyəti 100% elektrikli və sükan olmamasıdır.

Amerikanın daha bir avtonom markası "Aurora Innovation"dır, əsas hədəfi yük daşıma və robotaksidir. Tərəfdaşları "Volvo", "Toyota", "PACCAR" olan bu avtonomlar test mərhələsindədir, yükdaşıma üzrə fokuslanıb. "Amazon"un "Zoox" avtonomları avtonom texnologiyası üçün sıfırdan hazırlanmış futuristik taksilərdir. Məqsəd təkcə proqram deyil, həm də fiziki platforma istehsal etməkdir.

Çinin "Baidu Apollo" şirkətinin avtonom avtomobilləri Pekin, Vuhan, Şençjendə fəaliyyət göstərir. Texnologiyası lidar, radar, süni intellekt olan bu avtonomlar robotaksi, ağıllı şəhər həlləri üçün istifadə edilir.

Çin və ABŞ-ın ortaq layihəsi olan "Pony.ai"nin tərəfdaşı Toyotadır, fəaliyyət istiqaməti Çin və ABŞ-da avtonom nəqliyyat testləridir, həmçinin lisenziya alaraq bəzi şəhərlərdə pullu xidmət göstərir. İsrailin "Mobileye" avtonomları "İntel"in məhsuludur, texnologiyası kamera əsaslı sürücü yardım sistemləridir. Məqsəd avtomobil istehsalçılarına sistem təmin etməkdir. ABŞ-ın "Nuro" markası avtonom çatdırılma robotlarını fokuslayıb və insanlar üçün nəzərdə tutulmayıb. Müştəriləri "Walmart", "Kroger" olan bu idmət növü kiçik, yavaş və təhlükəsiz avtonom çatdırılma vasitələri təklif edir. Qeyd edək ki, avtonom avtomobil istehsalında ABŞ və Çin liderdir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
19 iyun
2025-ci il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Ailə anlayışında mühüm dəyişikliklər baş verib"





***"Müasir dövrdə cəmiyyətin inkişafı ilə paralel olaraq ailə anlayışında da mühüm dəyişikliklər baş vermişdir. Xüsusilə, şəhərləşmə prosesi və texnologiyanın sürətli inkişafı ailə quruluşuna, ailə üzvləri arasındakı münasibətlərə və rol bölgüsünə ciddi təsirlər göstərmişdir". Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib. O bildirib ki, bu dəyişikliklər bir tərəfdən həyat şəraitini asanlaşdırsa da, digər tərəfdən ailə dəyərlərində və funksiyalarında yeni çağırışları da gündəmə gətirmişdir: "Ənənəvi kənd həyatında geniş ailə tipi - nənə, baba, valideynlər və uşaqların bir yerdə yaşadığı model daha çox üstünlük təşkil edirdi. Şəhərləşmə ilə birlikdə bu struktur dəyişmiş, nüvə ailə, yalnız valideynlər və uşaqlardan ibarət olan daha kiçik ailə modeli yayılmışdır. Bu dəyişiklik bir sıra sosial və emosional nəticələrə səbəb olmuşdur:***

Valideyn-uşaq münasibətləri daha sıx və fərdi hala gəlmişdir.

Ailə dəstək sistemləri zəiflədiyi üçün uşaqların tərbiyəsində və yaşlılara baxımda çətinliklər yaranmışdır.

Şəhər həyatının tələbləri ailə üzvlərini daha çox iş və sosial fəaliyyətlərə yönəltdiyindən birgə vaxt keçirmə imkanları azalmışdır.

Texnologiya, ailələrin ünsiyyət tərzindən tutmuş gündəlik həyat tərzinə qədər hər bir sahəyə təsir göstərmişdir. Mobil telefonlar, sosial şəbəkələr və müxtəlif elektron cihazlar ailə üzvləri arasında əlaqənin formasını dəyişdirmiş, lakin bəzən real ünsiyyətin azalmasına da səbəb olmuşdur. Məsələn: Uşaqlar və gənclər vaxtlarının böyük hissəsini onlayn platformalarda keçirdikləri üçün ailə daxilində münasibətlər zəifləyə zəifləmişdir. Digər tərəfdən, texnologiya valideynlərə təhlükəsizlik və nəzarət imkanları da təqdim edir. Məsələn, uşaqların yeri izlənilə bilər. Ər-arvad arasındakı münasibətlərdə soyuqluqa səbəb ola bilər.

Son onilliklərdə qadınların təhsildə və iş həyatında fəal iştirakı artmışdır. Bu, ailə münasibətlərində və rol bölgüsündə mühüm dəyişikliklərə səbəb olmuşdur: Əmək bölgüsündə tarazlıq: Qadınların işləməsinin sayının artmasına təsir etmişdir. İqtisadi müstəqillik qadınlara daha çox söz haqqı və qərarvermə gücü qazandırmışdır. Hərçənd ki, bunun mənfi tərəfləri də vardır. Evdə ər-arvad arasında dominantlıq bu səbəbdən qadına keçmişdir. Bu dəyişikliklər bəzi hallarda ailə daxilində gərginliyə və gözləntilərin toqquşmasına da gətirib çıxara bilər".

"Ənənəvi ailə modelində kişi ailənin başçısı, qadın isə evin qayğıkeşi rolunu oynayırdı. Müasir dövrdə bu bölgü getdikcə dəyişir: Ailə daxilində cinsiyyətə görə deyil, bacarıq və imkanlara görə bölgü üstünlük qazanır. Bu da bizim milli və dini dəyərlərimizə tamamiylə ziddir. Bu, gender bərabərliyini təşviq etsə də, müsəlman cəmiyyətlərində sosial ziddiyyətlərə səbəb olur.

Ailənin sosial rifahını yaxşılaşdırmaq, həyat yoldaşına dəstək üçün qadınların işləməsi müsbət haldır, amma bu qadının iqtisadi azadlığa çıxdıqdan sonra ailədə dominant olmasına gətirib çıxarmamalıdır. Qadının gəlirləri çox olsa belə, evdə dominant kişi olmalıdır. Uşaqların tərbiyəsində həm ananın, həm də atanın fəal rolu onların emosional və sosial inkişafına müsbət təsir göstərir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "Sosial media bir vasitədir - məqsəd deyil"




"Müasir dövrün ayrılmaz parçasına çevrilmiş sosial media platformaları artıq insanların təkcə ünsiyyət vasitəsi deyil, həm də özlərini ifadə etmə, tanıtdırma və cəmiyyətlə münasibət qurma vasitəsinə çevrilib". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib. Psixoloq bildirib ki, bəzən insanlar gündəlik həyatlarında baş verən ən xırda hadisəni belə paylaşmaq ehtiyacı hiss edirlər. Onların bu davranışlarının arxasında müxtəlif səbəblər durur. Ən çox rast gəlinən səbəblərdən biri təqdir olunmaq, bəyənilmək, yəni "layk" toplamaq istəyi ilə bağlıdır. Bu sosial təsdiqə ehtiyac bəzi hallarda o qədər güclü olur ki, insanlar hər addımlarını paylaşaraq, virtual aləmdə özlərini daha "görünən" etməyə çalışırlar. Bəzən isə bu davranışlar iş həyatının tələblərindən irəli gəlir. Xüsusilə media, reklam və ictimaiyyətlə əlaqələr kimi sahələrdə çalışanlar üçün sosial media aktivliyi bir vəzifəyə çevrilə bilər. Lakin paylaşımın məqsədi və niyyəti burada çox önəmlidir. Bir çox hallarda insanlar psixoloji olaraq narahat olduqları zaman başqaları ilə özlərini müqayisə edir, bəhsə girir və eqo mərkəzli davranış sərgiləyirlər. Bu zaman paylaşımlar artıq sadəcə informasiya ötürməkdən çıxır, kiməsə nəyisə sübut etmək vasitəsinə çevrilir. Hətta bəzi şəxslər özlərinə aid olmayan məqamları paylaşaraq, süni həyat obrazı yaratmağa çalışırlar ki, bu da səhv və təhlükəli bir yanaşmadır.

Məncə, sosial mediada paylaşımın tezliyi və məzmunu şəxsin kimliyi, peşəsi və məqsədi ilə düz mütənasib olmalıdır. Əgər bir şəxs işləyirsə, onun paylaşım tərzi və sayı iş sahəsi ilə uyğunlaşmalıdır. İşlə bağlı informativ və faydalı paylaşımlar cəmiyyət üçün də dəyərlidir. Ancaq şəxsi həyatın davamlı olaraq paylaşılması - yeməklər, geyimlər, şəxsi münasibətlər, məkanlar və s. - artıq "görünmək", "bəyənilmək", "qısqanılmaq" kimi gizli ehtiyaclara işarə edir ki, bu da gələcəkdə psixoloji problemlərə yol aça bilər. Xüsusilə paylaşmaq, onun dəyərini azalda bilər. Həyatın hər anını paylaşmaq, o anı yaşamaq yerinə, onu başqalarına göstərməyə xidmət edirsə, bu artıq bir balansın pozulması deməkdir. Nəticə etibarilə, sosial mediada paylaşım mədəniyyəti düşünülmüş və məqsədyönlü olmalıdır. Həm özümüzü, həm də başqalarını psixoloji təzyiqdən uzaq tutmaq üçün paylaşımın miqdarına və məqsədinə diqqət etməliyik. Sosial media bir vasitədir - məqsəd deyil".

***Günel Rəşadqızı***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**